13 noyabr 2020-ci il
№38 (8902)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

# ŞANLI QƏLƏBƏN MÜBARƏK, AZƏRBAYCAN!



**İlham ƏLİYEV, Ali Baş Komandan**

## Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur






# Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib



**Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.**

**AZƏRTAC müraciəti təqdim edir.**

## Prezident İlham Əliyevin müraciəti

**– Əziz həmvətənlər.**

**Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzalamışlar. İstərdim ki, bəyanatın mətni ilə sizi tanış edim:**

⇨Ardı səh.3

## "Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin

## BƏYANATI

Biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin aşağıdakıları bəyan edirik:

1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası hazırda tutduqları mövqelərdə qalacaqlar.
2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.
3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.
4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı Tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır.
5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.
6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi 5 kilometr enliyində Rusiya sülhməramlı kontingentinin nəzarəti altına verilir. Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.
7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının ofisinin nəzarəti altında geri qayıdır.
8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.
9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir, Ermənistan Respublikası vətəndaşlarının nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verilir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat-kommunikasiyalarının inşası təmin ediləcək.

Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri, Rusiya Federasiyasının Prezidenti".

# Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## Prezident İlham Əliyevin müraciəti

> **Bir daha demək istəyirəm ki, Ermənistan baş naziri Paşinyanın bu hərəkəti başadüşüləndir. Halbuki hesab edirəm ki, hər bir insan öz əməllərinə görə cavab verməlidir. Hər bir insan hətta onun üçün, ölkəsi üçün ən ağır, ən kritik vəziyyətdə özünə hörmət saxlamalıdır. Onsuz da Paşinyan bunu imzalayacaq. Biz onu məcbur etdik. Ancaq onu hansısa bağlı bir yerdə, qapalı bir yerdə, kameralardan uzaq bir yerdə qorxaqcasına, namərdcəsinə imzalayacaq. Öz xoşu ilə bunu imzalamır. Bunun - dəmir yumruğun hesabına imzalayır!**



⇦ **Əvvəli səh.2**

Əziz həmvətənlər, əziz bacılar və qardaşlar.

Bu bəyanatın tarixi əhəmiyyəti var. Bildirməliyəm ki, bu bəyanat videokonfrans şəklində imzalanmışdır və ilk mərhələdə 3 ölkənin başçısı bu videokonfrans vasitəsilə bəyanatı imzalamalı idilər. Ancaq son anda Ermənistan baş naziri bundan imtina edib. Bu, müəyyən dərəcədə başadüşüləndir. Çünki faktiki olaraq bu bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir. Ona görə bu bəyanatı videokonfrans formatında Rusiya Prezidenti və mən imzalamışıq və bu bəyanat rus dilində tərtib edilibdir. Mənim burada imzam var, bu sənəd bu imzalamadan sonra Rusiya səfirinə təqdim edilib və Rusiya və Ermənistan dövlət, hökumət başçıları bu sənədi imzalayacaqlar.

Bir daha demək istəyirəm ki, Ermənistan baş naziri Paşinyanın bu hərəkəti başadüşüləndir. Halbuki hesab edirəm ki, hər bir insan öz əməllərinə görə cavab verməlidir. Hər bir insan hətta onun üçün, ölkəsi üçün ən ağır, ən kritik vəziyyətdə özünə hörmət saxlamalıdır. Onsuz da Paşinyan bunu imzalayacaq. Biz onu məcbur etdik. Ancaq onu hansısa bağlı bir yerdə, qapalı bir yerdə, kameralardan uzaq bir yerdə qorxaqcasına, namərdcəsinə imzalayacaq. Öz xoşu ilə bunu imzalamır. Bunun - dəmir yumruğun hesabına imzalayır!

Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur.

Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da - Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub. Çünki noyabrın 9-da 72 yaşayış məntəqəsini Azərbaycan Ordusu işğalçılardan azad edib. Şuşanın azad edilməsi, noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi və sentyabrın 27-dən bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun belini qırmışıq. Paşinyan məcbur olub bu bəyanata öz imzasını atır. Amma çox miskin, çox acınacaqlı durumda. Mən isə böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam. Çünki bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq. Qısa bir müddət qoyulur, bu ayın sonuna qədər bu rayonlar bizə qaytarılır. Bu, böyük xoşbəxtlikdir. Mən fürsətdən istifadə edərək, Ağdam, Laçın, Kəlbəcər rayonlarının sakinlərini, bütün Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Hər dəfə işğal altında olan hansısa rayon, şəhər işğaldan azad ediləndə mən o şəhər və rayonların sakinlərini təbrik edirdim, təsəvvür edirəm ki, onların həyatında bu nə deməkdir. Onların bəziləri, bəlkə də bir çoxları görəndə ki, uzun illər ərzində məsələ öz həllini tapmır artıq ümidlərini itirmişdilər. Mən son 17 il ərzində köçkünlərlə çoxsaylı görüşlərimdə, onlar üçün yeni evlərin təqdimat mərasimlərində görürdüm ki, ildən-ilə onların ümidləri azalır. Görürdüm, ürək ağrısı ilə bunu görürdüm. Görürdüm ki, artıq onların bəziləri ümidlərini itirib. Bəli, təşəkkürünü bildirirdilər, təbii ki, onlara yaxşı şərait yaradılırdı, onların problemləri həll olunurdu. Bilirsiniz ki, məcburi köçkünlər üçün Azərbaycanda görülən işlər heç bir başqa ölkədə görülmür. Dünyanın bir çox ölkələrində köçkünlər var, amma bizim köçkünlərimizin vəziyyəti o biri ölkələrdə yaşayan köçkünlərlə müqayisəedilməz dərəcədə müsbətdir. Amma onların əsas arzusu doğma torpaqlara qayıtmaqdır və məndən xahiş edirdilər, cənab Prezident, qaytar bizi. Mən də hər dəfə onlarla görüşəndə həm onlarda güclü iradə görürdüm, yenilməzlik görürdüm, dövlətə sədaqət görürdüm, eyni zamanda, onların gözlərində nisgil, həsrət görürdüm. Buna son qoyulub, əziz soydaşlarım, gözünüz aydın olsun, siz qayıdırsınız, biz qayıdırıq, Azərbaycan qayıdır! Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir. Bundan da böyük xoşbəxtlik ola bilərmi!

Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq. İndi bütün dünya görür ki, mənfur düşmən bu torpaqları hansı vəziyyətə salıb. Bizim bütün binalarımız dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, muzeylərimiz talan edilib, təbiətimizə böyük ziyan vurulub, məscidlərimiz dağıdılıb, təhqir edilib. Azad edilmiş torpaqlarda yarıdağılmış məscidlərdə vəhşi düşmən bizi təhqir etmək üçün, bizim qürurumuza toxunmaq üçün donuz saxlayırdı. Amma biz onların qisasını artıqlaması ilə aldıq. Xocalı qurbanlarının da qisasını aldıq, şəhidlərimizin də qisasını aldıq.

Mən noyabrın 8-də Şuşanın azad edilməsi ilə əlaqədar xalqıma müjdə verərkən bildirmişdim ki, şəhidlərin ruhu qarşısında baş əyirəm. Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torplaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq. Onlar torpağımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş və işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb. Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır. 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik. Dedik ki, düşməni torpaqlarımızdan qovacağıq! Heç bir danışıqlar bizi maraqlandırmır. Siz də yaxşı bilirsiniz ki, son bir il ərzində mən danışıqlar haqqında, ümumiyyətlə, söhbət aparmıram. Xalqımı aldatmaq istəmirdim, heç vaxt aldatmamışam və aldatmayacağam. Azərbaycan xalqı bunu bilir. Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldi. Dedik yetər artıq, bu əsarət yetər! Bizim şəhərlərimiz əsarət altında nə qədər qalacaq?! Mənfur düşmən bizim təbiətimizi nə qədər murdarlayacaq, bizim torpağımızda gəzəcək, yeyəcək, içəcək, rəqs edəcək, bizi təhqir edəcək. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!

Sentyabrın 27-də nə baş verib, onu tarixçilər deyəcək. Necə başlayıb, onu hesab edirəm ki, bir çoxları bilir. Artıq Azərbaycan xalqının səbri tükənmişdi və mən Ermənistan baş nazirinə son görüşlərdə demişdim ki, siz odla oynamayın, Azərbaycan xalqının səbri ilə oynamayın. Siz Azərbaycan xalqını tanımırsınız, siz tanıyacaqsınız bizi, amma gec olacaq. Düz yola gəlin, çıxın bu torpaqlardan, bu torpaqlar sizə mənsub deyil. Amma nə etdilər? Orada qanunsuz məskunlaşma aparmaq üçün beynəlxalq hüququ, beynəlxalq konvensiyaları, o cümlədən Cenevrə konvensiyalarını kobudcasına pozaraq nümayişkaranə şəkildə xaricdən erməniləri gətirib özü də məhz Şuşaya ki, bizi incitsin. Məhz Şuşada o dəstə başçısı hansı ki, indi deşik axtarır gizlənməyə, xunta başçısı özünə andiçmə mərasimi keçirmişdir və Ermənistan baş naziri gedib orada iştirak edib. Bu, bizə sataşmaq deyildimi? Bunun hesabını sizdən soruşan olmayacaqdımı?! Hesabını soruşduq, diz çökdürdük, diz üstə qoyduq! Onun-bunun ətəyindən yapışıb bu 40 gündən çox bir müddətdə adam qalmayıb ki, zəhləsini tökməsin, yardım istəməsin, özünü alçaltmasın. Biz alçaltmışıq onu, əcəb də etmişik.

⇨**Ardı səh.4**

# Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## Prezident İlham Əliyevin müraciəti

**Bizim üçün müqəddəs olan Şuşa şəhərinin Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edəndə fikirləşəydi ki, bu gün gələcək, cəzasını alacaq, siçan kimi gizlənib bax bu sənədi götürüb ağlaya-ağlaya imzalayacaq. Yerini göstərdik, dərsini verdik. Qovmuşuq onları torpaqlarımızdan, iti qovan kimi qovmuşuq. Demişdim ki, qovacağıq, iti qovan kimi qovacağıq və qovmuşuq, iti qovan kimi qovmuşuq. Qorxularından indi bu sənədə imza atır, bilir ki, biz Ağdama da, Kəlbəcərə də, Laçına da gələcəyik. Heç kim bizi saxlaya bilməz. Hər kəs bizim gücümüzü gördü, hər kəs bizim dəmir yumruğumuz nədir, anladı. Ona görə qovmuşuq onları, əcəb də etmişik.**



⇦ Əvvəli səh.3

Bizim üçün müqəddəs olan Şuşa şəhərinin Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edəndə fikirləşəydi ki, bu gün gələcək, cəzasını alacaq, siçan kimi gizlənib bax bu sənədi götürüb ağlaya-ağlaya imzalayacaq. Yerini göstərdik, dərsini verdik. Qovmuşuq onları torpaqlarımızdan, iti qovan kimi qovmuşuq. Demişdim ki, qovacağıq, iti qovan kimi qovacağıq və qovmuşuq, iti qovan kimi qovmuşuq. Qorxularından indi bu sənədə imza atır, bilir ki, biz Ağdama da, Kəlbəcərə də, Laçına da gələcəyik. Heç kim bizi saxlaya bilməz. Hər kəs bizim gücümüzü gördü, hər kəs bizim dəmir yumruğumuz nədir, anladı. Ona görə qovmuşuq onları, əcəb də etmişik.

Onların demək olar ki, bütün texnikasını məhv etmişik, darmadağın etmişik. Bu 30 il ərzində qurulmuş istehkamları keçmişik, əsgərlərimiz aslan kimi keçiblər, əziblər düşməni keçiblər, əcəb də ediblər, öz torpağında. Biz beynəlxalq hüquqa əməl edirik, biz beynəlxalq hüquqa hörmət göstəririk. Biz mülki vətəndaşlardan intiqam almamışıq, heç vaxt almayacağıq və məhz buna görə mülki vətəndaşlar arasında düşmən tərəfdə itkilər çox azdır. Onlar nə etdilər? Onlar döyüş meydanında duruş gətirə bilmədilər, qaçdılar, ondan sonra ballistik raketlərlə mülki vətəndaşlara atəş açdılar. Bu, hərbi cinayətdir. Onlar bu hərbi cinayətə görə cavab verəcəklər. Gəncə şəhərini Ermənistandan ballistik raketlərlə vurmaq alçaqlıqdır, alçaq hərəkətdir, cinayətdir. Bərdəni kasetli bombalarla atəşə tutmaq hərbi cinayətdir. Mən demişəm Tərtər şəhəri, İkinci Dünya müharibəsi dövründə dağılmış Stalinqrad şəhərinə bənzəyir. Gündə, - özü də böyük şəhər deyil, - yüzlərlə mərmi düşürdü, amma bir nəfər də tərpənmədi. Amma ermənilər qaçıb getdilər. Onların “yenilməz” ordusu məhv oldu, fərarilik başladı, xunta başçısı Dağlıq Qarabağda əmr verdi ki, kim oradan qaçacaq, o, məsuliyyətə cəlb olunacaq. Bizdə BİR nəfər fərari oldumu? Olmadı! Bir nəfər də olmadı! Budur Azərbaycan xalqı! Mülki vətəndaşlar, evi dağılıb, malı batıb, yaxın insanını itirib, yenə də deyir ki, “Vətən sağ olsun”. Ancaq irəli, irəli! Mənə yazılan məktublarda deyilir, Ali Baş Komandan, irəli! Dəstəkləyirik səni, get irəli, dayanma və getmişəm, dayanmamışam.

Bu müharibə dövründə 30-a yaxın müsahibə vermişəm. Ömrümdə bəlkə də bu qədər müsahibə verməmişəm və bəziləri deyirlər ki, İlham Əliyev nə üçün müsahibə vermir. Hesab edirdim ki, mən öz mövqeyimi ifadə etmək üçün kifayət qədər imkanlara malikəm, tez-tez bütün məsələlərlə bağlı öz fikirlərimi bildirirəm. Mənim bütün fəaliyyətim şəffafdır, keçirdiyim bütün iclaslar ictimaiyyətə təqdim edilir. Lüzum bilmirdim onda. Amma lazım olan vaxtda 30-a yaxın müsahibə vermişəm və o müsahiblərdə demişəm ki, biz beynəlxalq hüquqa hörmətlə yanaşırıq, biz beynəlxalq hüququ müdafiə edirik, biz ədaləti müdafiə edirik, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik. Demişdim ki, bizim bütün addımlarımız beynəlxalq hüququn norma və prinsipləri əsasında, əxlaq əsasında görülüb və bütün addımlarımız bu istiqamətdə atılıb. İntiqamımızı düşməndən aldıq, işğalçıdan aldıq. Mülki vətəndaşlarla bizim işimiz olmayıb və olmayacaq. Düşmənin məskunlaşdığı, gizləndiyi şəhərlərdə böyük dağıntılar yoxdur. Çünki biz mülki obyektlərə atəş açmamışıq. Bax, bizim fərqimiz bundan ibarətdir.

Mən bu müharibə başlayandan sonra demişdim ki, bir çoxları, demək olar, bu məsələ ilə məşğul olan siyasətçilərin hamısı deyirdi ki, bu münaqişənin hərbi həlli yoxdur. Mən nə deyirdim? Deyirdim ki, var! Məni tənqid edirdilər ki, İlham Əliyev nə danışır? Yoxdur hərbi həlli. Dedim yaxşı yoxdursa, onda bunu sülh yolu ilə həll edin. Sizin əlinizdə bu imkanlar var. Siz böyük dövlətlərsiniz, böyük nüfuzunuz var, böyük imkanlarınız var. Nədir ki, sizin qabağınızda Ermənistan, nədir ki, ona təsir edə bilmirsiniz? Bəlkə təsir etmək istəmirsiniz? Yox, deyirdilər ki, olmaz müharibə aparmaq, sülh yolu ilə. Sülh yolu ilə 1 il, 2 il, daha 30 il sülh yolu ilə? Bizim başımızı nə qədər aldatmaq olar? Amma biz sübut etdik ki, hərbi həlli var. Və mən demişdim ki, mən istəyirəm və Paşinyan, deyirəm sənə, bəyanat ver, öhdəlik götür, qrafik ver, cədvəl ver. Müharibənin ilk günündən mən bunu deyirdim. Hər kəs də bunu görə bilər. Müsahibələrimdə, xalqa müraciətlərimdə açıq demişəm, qrafik ver, cədvəl ver, rədd ol, çıx get, mən dayanıram. Yoxsa oradan deyirlər dayanın, buradan deyirlər dayanın. Yaxşı, bizim torpaqlarımızı işğal edəndə niyə bunlara “dayanın!” deyən olmadı? Bizim torpağımızı 30 il əsarət altında saxlayan Ermənistana nə üçün “buradan çıx get!” deyən olmadı! Bu, nədir? Yaxşı, biz indi öz gücümüzə güvənərək bu torpaqları şəhid verə-verə, qan tökə-tökə azad edirik, bizə “dayanın” deyirsən, ona de ki, çıx. Demir. Bizə deyir dayan. Dedim dayanmayacağam mən. Heç kim məni dayandıra bilməz və dedim tələb edirəm səndən Paşinyan, şəxsən özün, sənin xarici işlər nazirin, nə bilim o biri, bu biri yox, şəxsən özün öhdəlik götürməlisən, tarix verməlisən nə vaxt rədd olursan bizim torpaqlarımızdan. Bax bu bəyanatda o öhdəlik var. Məcbur edirik onu, məcbur etdik, zorla məcbur etdik, başına vura-vura məcbur etdik, bütün bəd əməllərinə görə, o donuzları bizim məscidlərimizdə saxladığına görə. Bizim məscidlərimizdə donuz saxlayan özü donuzdur. İndi bu sənəddə öhdəlik var. Dekabrın 1-nə qədər rədd olacaq qalan işğal edilmiş torpaqlardan. Ona görə məsələnin hərbi yolu var. Amma mən deyirdim, istəyirəm ki, bu hərbi mərhələ də dayansın, keçək siyasi mərhələyə. Nə oldu? Mən deyən oldu. Bax, bu gün mən deyən oldu. Hərbi mərhələ başa çatır, keçirik siyasi məsələyə. Demək olar ki, bizə maksimum sərf edən sənəd imzalandı. Paşinyan onu imzaladı. Başqa yolu yox idi. Əslində, bu, məğlubiyyətin etirafıdır. Bu, hərbi kapitulyasiyadır. Prinsip etibarilə mən tələb edə bilərdim ki, gəlsin otursun orada, aşağıda, bax orada imzalasın onu. Amma mən belə adam deyiləm. Mən nə üçün kimisə alçaldım. O onsuz da özünü alçaldıb. Bu rəzil duruma özü-özünü salıb. Gərək orada qarnını qabağa verib, sərxoş vəziyyətdə Cıdır düzündə rəqs edəndə bu günü fikirləşərdi ki, gün gələcək hesabını verəcəksən, verirsən. Bax belə. Heç kim bizimlə zarafat edə bilməz. Heç kim Azərbaycan xalqının səbri ilə oynaya bilməz. Heç kim bizi təhqir edə bilməz. Edərsən, dərsini alarsan. Necə ki, dərsini vermişik.

Ona görə məsələnin həlli artıq təmin edilib. Əlbəttə, əgər Ermənistan atəşkəsə əməl etsə, - mən artıq bütün əmrlərimi vermişəm, - komandanlıqlara əmrimi vermişəm, biz dayanırıq. Biz imzamıza hörmətlə yanaşırıq. Qarşı tərəf də dayanmalıdır. Çünki dayanmasa, biz də dayanmayacağıq.

İndi beynəlxalq müşahidəçilər yaxşı bilirlər ki, kim atəşkəsi pozub. Birinci dəfə kim pozub Gəncəni ballistik raketlə bombalayanda, ikinci dəfə kim pozub beş dəqiqə atəşkəs vaxtından keçməmiş və üçüncü dəfə Bərdəni kasetli raketlərlə vurmaqla. İndi bu dəfə də pozsa, artıq mən hesab edirəm ki, özü lap peşman olacaq. Ona görə biz istədiyimizə nail ola bilmişik. Biz düşməni məcbur edə bilmişik. Mən faktiki olaraq onlara ultimatum vermişəm. Demişəm ki, çıxmalısan, çıxmasan sona qədər gedəcəyəm. Sona qədər! Ayın 8-də Şəhidlər xiyabanında demişəm ki, sona qədər gedəcəyəm və heç bir qüvvə məni dayandıra bilməz. Biz bu qələbəni döyüş meydanında qazandıq. 300-ə yaxın yaşayış məntəqəsi, o cümlədən Füzuli şəhəri, Cəbrayıl şəhəri, Zəngilan şəhəri, Qubadlı şəhəri, Şuşa şəhəri, Hadrud qəsəbəsi, Suqovuşan qəsəbəsi, digər qəsəbələr döyüş meydanında azad edildi.

Bu qələbələr düşməni məcbur etdi ki, Ağdam, Laçın, Kəlbəcər rayonları bizə siyasi yollarla qayıdır. Amma burada Ermənistan tərəfinin xoş niyyətini axtarmaq yersizdir. Onlarda xoş niyyət deyilən anlayış bütövlükdə yoxdur. Sadəcə olaraq, məcbur olub. Çünki bilirdi ki, bu sənədə imza atmasa, özümüz alacağıq bu torpaqları. Hər kəs bunu bilirdi. Mən demişdim ki, qan tökmək istəmirəm, müharibəni dayandırmalıyıq, rədd olsun bizim torpaqlarımızdan! Belə də oldu.

Mən bir məsələni də qeyd etmək istərdim. Mən əziz xalqımı sənədin mətni ilə tanış etdim. Burada yeni nəzarət mexanizmi tətbiq edilir. Bəyanatın beşinci bəndində yazılıb: “Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır”.

⇨Ardı səh.5

# Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## Prezident İlham Əliyevin müraciəti



**Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi - yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq, müzəffər ordumuz! Fəxr edirik xalqımızla, ordumuzla! Əminəm, hər bir Azərbaycan vətəndaşı hesab edir ki, onun həyatında bu günlər, bu dəqiqələr ən xoşbəxt günlər, dəqiqələrdir. Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!**

⇦ **Əvvəli səh.4**

Mən deyə bilərəm ki, bu mərkəzdə Rusiya və Türkiyə hərbçiləri fəaliyyət göstərəcək. Beləliklə Türkiyə rəsmi qaydada bu münaqişənin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynayacaqdır.

Mən videokonfrans formatında imzalama mərasimindəki çıxışımda həm Türkiyə Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın, həm Rusiya Prezidenti Vladimir Putinın səylərini yüksək qiymətləndirdim. Çünki onlar doğrudan da bu 44-45 gün ərzində böyük səylər göstərmişlər ki, məsələ sülh yolu ilə həll olunsun. Eyni zamanda, mən çox şadam ki, artıq münaqişənin dayandırılmasında bu iki lider öz müsbət rolunu oynayıb. Hesab edirəm ki, bu, eyni zamanda, bölgədə gələcək əməkdaşlıq formatını da böyük dərəcədə müəyyən edir. Çünki Türkiyə ilə Rusiya arasındakı əlaqələr bu gün tarixə baxsaq, hesab edirəm ki, ən yüksək səviyyədədir. Hər iki ölkə bizim üçün dost, qonşu ölkədir. Beləliklə, hesab edirəm ki, gələcəkdə bu əməkdaşlıq formatı daha da çoxşaxəli ola bilər.

Digər önəmli məsələ, xüsusilə qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Həm bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda, burada göstərilir ki, yeni nəqliyyat kommunikasiya infrastrukturu yaradıla bilər və yaradılmalıdır. Biz bunu əlbəttə ki, çox dəstəkləmişik. Deyə bilərəm ki, mənim təkidimlə bu bənd bu bəyanata salındı. Çünki birbaşa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin əlaqəsi yoxdur. Ancaq mənim təkidli tələblərim şadam ki, qəbul olundu. Beləliklə Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Çünki mənfur düşmən 1990-cı illərin əvvəllərində və ondan da bir qədər əvvəl Naxçıvanı faktiki olaraq mühasirəyə almışdı. Bütün kommunikasiya xətləri kəsildi, - çünki o vaxt Azərbaycanın əsas hissəsindən oraya enerji resursları ötürülürdü, - faktiki olaraq Naxçıvan Muxtar Respublikası çox ağır vəziyyətdə qalmışdı. Eyni zamanda, Ermənistan ərazisindən oraya hücumlar da edilirdi. Dəfələrlə demişəm, məhz ulu öndər Heydər Əliyevin cəsarəti və fəaliyyəti nəticəsində Naxçıvan işğal altına düşmədi. Erməni vandallarının belə planları da var idi.

Ona görə bu bəndi xüsusilə qeyd etmək istərdim və əziz naxçıvanlıları da bu hadisə münasibətilə təbrik etmək istərdim. Bildirməliyəm ki, naxçıvanlılar da ikinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər. İndi müharibə başa çatır, bu günə qədər açıqlanmayan bəzi məsələlər də üzə çıxacaq və hər kəs biləcək ki, başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər.

Mən bir məsələyə də toxunmaq istəyirəm. Bu günlərdə biz Azərbaycan xalqının birliyini gördük. Bütün bölgələrdən ordumuza dəstək gəldi. Bütün bölgələrdə hər bir vətəndaş böyük həyəcan hissi ilə bu günləri yaşayıb, hər gün televiziya önündə, radio qarşısında, internetdə cəbhədən gələn xəbərləri izləyib, uğurlarımıza sevinib. Bütün bölgələrdə biz bunu gördük. Bir daha gördük ki, ölkəmiz və xalqımız nə qədər gözəl ölkədir və gözəl xalqdır. Ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri, bütün dini konfessiyaların nümayəndələri cəsarət göstərərək, düşmənlə vuruşaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Bu, bizim böyük sərvətimizdir, böyük dəyərimizdir. Mən bunu dəfələrlə demişəm. Ermənistan bu xoşbəxtlikdən məhrumdur. Çünki monodövlətdir, orada ermənilərdən başqa heç kim yaşamır. Avrasiyada, bizim bölgədə başqa belə ölkə tapmaq mümkün deyil. Çünki heç kim orada yaşaya bilmir. Ya onları qovurlar, azərbaycanlılar kimi etnik təmizləməyə məruz qoyurlar, ya da ki, başqa millətin nümayəndəsi orada yaşaya bilmir, sıxışdırırlar, sıxışdırırlar, sıxışdırırlar. Amma bizim üstünlüyümüz bax, bundadır, çoxmillətli, çoxkonfessiyalı Azərbaycan bu müharibədə də özünü göstərdi, bütün xalqların nümayəndələri birlik göstərdilər, qəhrəmanlıq göstərdilər. Bir daha demək istəyirəm ki, bu müharibə bir çox məsələlərə bir daha aydınlıq gətirmişdir.

Mən bir məsələni də bildirmək, əziz xalqıma çatdırmaq istəyirəm. Yəqin siz fikir vermisiniz ki, bu bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur, yoxdur! Bəs hanı Ermənistan tərəfinin tələbləri ki, Dağlıq Qarabağa müstəqillik verilməlidir? Mən onlara muxtariyyət təklif edəndə buna razı olmadılar, dedilər ki, yox, bu, "müstəqil dövlətdir". Bunlar uzun illərdir "müstəqil dövlət" kimi yaşayır və onlar Azərbaycandan müstəqillik almalıdırlar. Bir kəlmə də yoxdur, Paşinyan. Nə oldu bəs? Bu nə oldu, Paşinyan? Deyəsən, bir çox illər ərzində dillərdə qalacaq. Nə oldu Paşinyan, yol çəkirdin Cəbrayıla. Rəqs edirdin, nə oldu bəs status? Cəhənnəmə getdi status, gora getdi status, gorbagor oldu status, yoxdur status və olmayacaq. Nə qədər ki, mən Prezidentəm, olmayacaq. Ona görə, bu sənədin çox böyük mənası var. Əminəm ki, Azərbaycan xalqı bu sənədə böyük diqqət göstərərək onu dəqiq, böyük diqqətlə oxuyacaq və görəcək ki, biz nə qədər böyük siyasi qələbə qazanmışıq. Bu siyasi qələbənin qazanılmasında hərbi qələbəmiz müstəsna rol oynayır. Əlbəttə ki, son illər ərzində ölkəmizdə aparılan işlər, mövcud olan gözəl ab-hava, xalq-iqtidar birliyi, siyasi münasibətlərin müsbət səviyyəyə qalxması, beynəlxalq nüfuzumuz, beynəlxalq arenadakı fəaliyyətimiz - bütün bunlar, ordu quruculuğu təbii ki, bu qələbəmizi şərtləndirdi. Mən bu günlərdə bir şeyə də fikir verdim. Hətta fərqli siyasi baxışlara malik olan insanlar, bizim işimizə tənqidi yanaşan insanlar, hətta bir çox hallarda əsassız tənqidlər ifadə edən insanlar bu dövrdə hesab edirəm ki, yüksək şüur nümunəsi göstərdilər. Mən həmişə deyirdim ki, siyasi müstəvidə fərqli baxışlar var, olmalıdır, bu, normaldır. Müxalifət olmalıdır, bu, normaldır. Hər bir demokratik ölkədə olduğu kimi, bizdə də əlbəttə ki, bütün bu azadlıqlar var. Amma bir şey olmamalıdır - dövlətə müxalifətdə olmaq olmaz, dövlətçiliyə müxalifətdə olmaq olmaz. "İqtidara, dövlətə nə qədər pisdir, mənim üçün bir o qədər yaxşıdır" fikri ilə yaşamaq olmaz. Mən deyə bilərəm, bu günlər ərzində mən gördüm ki, milli məsələlərdə biz hamımız birləşə bilirik. Bu da bizim gələcəyimiz üçün çox önəmlidir. Çünki biz hamımız istəyirik ki, Azərbaycan inkişaf etsin, hamımız istəyirik ki, daha güclü ölkə olsun. Gücümüzü göstərmişik, döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda. Müstəqilliyimizi göstərmişik. İndi gün gələcək müharibə dövründə ictimaiyyətə açıqlana bilinməyən bəzi məqamları yəqin ki, açıqlayacaqlar. Ola bilsin ki, mən də hansısa məsələnin üstündən o pərdəni götürə bilərəm. Onda hər kəs görəcək ki, biz nə qədər böyük sınaqlardan çıxdıq, nə qədər böyük təzyiqlərə məruz qaldıq. Demək olar ki, gündəlik rejimdə deyirdilər, dayanın, dayanın, dayanın, dayanın. Amma biz qabağa getdik. Çünki mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi. Çünki mən bilirdim ki, biz haqlıyıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz torpaqlarımızı qaytarırıq. Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi - yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq, müzəffər ordumuz! Fəxr edirik xalqımızla, ordumuzla! Əminəm, hər bir Azərbaycan vətəndaşı hesab edir ki, onun həyatında bu günlər, bu dəqiqələr ən xoşbəxt günlər, dəqiqələrdir. Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!

"Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

# Əziz Şuşa, sən azadsan!



Heydər ƏLİYEV,
Ümummilli lider

İlham ƏLİYEV,
Ali Baş Komandan

## Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur

## Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim

**ŞUŞA**

bütün azərbaycanlılar üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir... Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur.

Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.
Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!

## İlham ƏLİYEV,
## Ali Baş Komandan

# İşğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır




**İlham Əliyev** @azpresid... · 7 nov.
Müzəffər Azərbaycan Ordusu Füzulinin Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli,

**İlham Əliyev** @azpresid... · 7 nov.
Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpresid... · 8 nov.
8 noyabr Şanlı Qələbə Günü kimi əbədi tarixə düşəcək. Biz Şuşaya qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır! Gözün aydın olsun, Azərbaycan!

**İlham Əliyev** @azpresid... · 8 nov.
ƏZİZ ŞUŞA, SƏN AZADSAN! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Qarabağ bizimdir! QARABAĞ AZƏRBAYCANDIR!

**İlham Əliyev** @azpresid... · 9 nov.
Müzəffər Azərbaycan Ordusu Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx,

**İlham Əliyev** @azpresid... · 9 nov.
Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

**İlham Əliyev** @azpresid... · 9 nov.
Müzəffər Azərbaycan Ordusu Xocavəndin Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər, Xocalının Şuşakənd, Muxtar, Daşaltı, Füzulinin Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı,

**İlham Əliyev** @azpresid... · 9 nov.
Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilanın Sobu, Qaragöz, İsgəndərbəyli kəndlərini, Bartaz qəsəbəsini, Bartaz strateji yüksəkliyini (2300 metr), Sığırt yüksəkliyini (1370 metr), Şükürataz yüksəkliyini (2000 metr) və əlavə 5 adsız strateji yüksəkliyi, Cəbrayılın Qalacıq,

**İlham Əliyev** @azpresid... · 9 nov.
Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlının Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli,

**İlham Əliyev** @azpresid... · 9 nov.
Laçının Güləbürd, Səfiyan, Türklər kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

## Heydər ƏLİYEV, ümummilli lider

# İndi biz Müstəqil Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin ilk Konstitusiyasını qəbul edirik



Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik.

İndi biz Müstəqil Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin ilk Konstitusiyasını qəbul edirik. Bu, çox məsuliyyətli və çox şərəfli bir vəzifədir. Bu bizə nəsib olubdur və güman edirəm ki, biz, yəni indiki nəsil həmin şərəfli vəzifəni ləyaqətlə yerinə yetirməyə qadirik.

Hər bir şəxs konstitusiya və qanunlara dönmədən əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələri layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir.

## Birinci vitse-prezident Mehriban ƏLİYEVA

# Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu!



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tarixi Qələbə münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın paylaşımında deyilir:**

"Əziz həmvətənlər!

Bu gün böyük gündür - Qələbə Günüdür! Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu! Tarixi ədalət bərpa olundu! Həqiqətən əlamətdar olan bu hadisə münasibətilə Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm!

Ermənistan özünün tam və qeyd-şərtsiz kapitulyasiyasını etiraf etdi! Biz öz nəcib xilaskar missiyamızı şərəflə yerinə yetirdik! Biz öz Vətənimizi qoruduq, əzəli Azərbaycan torpaqlarını işğaldan azad etdik, Azərbaycanın səbirlə gözlədiyi Qələbəni qazandıq! Biz uzun illər boyu həqiqətin və tarixi ədalətin təntənəsini gözləyirdik. Münaqişənin dinc yolla nizamlanmasına dair danışıqlar prosesində 30 ilə yaxın iştirak etməyimiz bizim sülh tərəfdarı olmağımızın əyani göstəricisidir. Ermənistan 27 il ərzində BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal altında olan bütün ərazilərindən işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə etinasızlıq göstərib. Ermənistan tərəfindən törədilən hərbi təxribatlar bitib-tükənmirdi. Azərbaycan bütün dünyaya göstərdi və sübut etdi ki, o, özünün işğal altında olan torpaqlarını müstəqil şəkildə, öz gücü ilə, öz qüdrəti ilə azad etməyə qadirdir və bunu etdi!

2020-ci il sentyabrın 27-dən davam edən hərbi əməliyyatlar dövründə Azərbaycan Ordusu təqribən 300 yaşayış məntəqəsini, o cümlədən 5 şəhəri və 4 qəsəbəni, çoxsaylı strateji yüksəklikləri azad etdi. Azərbaycanın mədəniyyət incisi - Şuşa şəhəri azad ediləndən cəmi bir neçə saat sonra bizim döyüşçülərimiz 72 yaşayış məntəqəsini və 9 strateji yüksəkliyi öz nəzarəti altına almağa nail oldu. Bu, şübhəsiz, Ermənistanın hərbi və siyasi rəhbərini çıxılmaz vəziyyətə saldı. Bizim ordumuz öz müqəddəs dəyərləri - Vətənimiz, ortaq evimiz uğrunda döyüşürdü və bu müqəddəs mübarizədə dözüb dayandı və qalib gəldi!

Bu anlarda bütün dünya azərbaycanlıları sevinc və qürur hissləri keçirir. Bizim Prezidentimizə görə, igid əsgərlərimizə və zabitlərimizə görə, Azərbaycan xalqının vətənpərvərliyinə, sıx birliyinə və həmrəyliyinə görə qürur keçirir!

Hər birimiz bizim Prezidentimizə, Ali Baş Komandan İlham Əliyevə hədsiz təşəkkür edirik! Onun rəhbərliyi ilə müasir, güclü Azərbaycan Ordusu yaradılıb! Məhz onun sarsılmaz iradəsi, cəsarəti, əzmkarlığı və qətiyyəti sayəsində Azərbaycan Ordusu düşməni sarsıtdı, müharibənin nəticəsini müəyyən etdi və qələbə nöqtəsini qoydu. Prezidentimizin güc mənbəyi olan Azərbaycan xalqının hörməti, sevgisi, etimadı, inamı və dəstəyi ona Avrasiya məkanında ən uzunmüddətli münaqişələrdən biri olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini başa çatdırmaqda kömək etdi. Onun başçılığı ilə biz xalqımızın özünəinamını qaytaran Qələbəni qazandıq! Bu Qələbənin möhtəşəmliyi Azərbaycan dövlətinin tarixində əbədi qalacaq!

Əziz qardaşlar və bacılar!

Torpaqlarımızın xaincəsinə işğalı illərində olduğu kimi, budəfəki döyüşlər dövründə də faciələr və itkilər oldu. Hərbi əməliyyatlar zonasından uzaqda vəhşicəsinə hücumlar nəticəsində şəhərlərimizin və kəndlərimizin dinc sakinləri həlak oldu. Uşaqlar, qadınlar və ahıl insanlar həlak oldu. Amma bu, Azərbaycanın əzmini sındırmadı! Mən həlak olanların doğmalarına və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verirəm! Onların qanı yerdə qalmadı! Azərbaycan Ordusu, Azərbaycan dövləti bütün həmvətənlərimizin axıdılmış qanına görə qisas aldı!

Vətənimizi müdafiə edən, onu dirçəldən nəslin işıqlı xatirəsi, bu nəslə hörmət və ona görə səmimi qürur hissi hər bir azərbaycanlının qəlbində həmişəlik qalacaq! Bizim əsgər və zabitlərimiz canlarını belə əsirgəmədən döyüşüblər. Onlar nəciblik və həqiqi vətənpərvərlik nümunəsi göstəriblər. Bu gün onların hamısını Vətən naminə, onun qüdrəti naminə göstərdikləri igidliklər birləşdirir! Biz onların rəşadəti, iradəsi və ruh yüksəkliyi qarşısında, öz mətanəti ilə işğalçını sarsıdan, Azərbaycanın ərazi bütövlüyünü bərpa edən hər kəsin qarşısında baş əyirik! Adları Azərbaycan dövlətinin tarixinə əbədi olaraq yazılan bu cür igid övladlar böyüdüb tərbiyə etmiş valideynlərin qarşısında baş əyirik! Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə Allah rəhmət eləsin!

Bu müharibə bizə əsrlərboyu bildiyimiz bir həqiqəti - dost dar gündə tanınar həqiqətini bir daha sübut etdi. Dünyadakı bütün dostlarımıza minnətdaram! Sağ olsunlar ki, bizim dərdimizə şərik oldular, Azərbaycan xalqını dəstəkləyən prinsipial və ədalətli mövqelərini açıq bildirdilər. Qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana xüsusi təşəkkürümü bildirirəm. Onların həmrəyliyi və dəstəyi hər bir azərbaycanlıda qürur hissi oyadır!

Kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkür edirəm. Onların yüksək peşəkarlığı, obyektivliyi, qərəzsizliyi, operativliyi və məsuliyyəti sayəsində bugünkü Azərbaycan reallıqlarını dünyaya çatdırmaq mümkün oldu. Öz vətənlərinin hüdudlarından kənarda Azərbaycanın mövqeyini müdafiə edən və Ermənistanın işğalçı mahiyyətini beynəlxalq ictimaiyyətə göstərən soydaşlarımız sağ olsunlar! Arxa cəbhədə bir yumruq kimi birləşərək Azərbaycan dövlətinin qüdrətini və bizim həmrəyliyimizi bütün dünyaya nümayiş etdirmiş bütün Azərbaycan xalqına minnətdaram!

Əziz həmvətənlər!

Sizin hamınızı Böyük Qələbə Günü münasibətilə təbrik edirəm! Böyük zəfər gününüz mübarək! Azərbaycanın şərəf və qüdrət günü mübarək! Qarabağın azad edilməsi günü mübarək! Biz Qələbə qazandıq! Qarabağ Azərbaycandır!

Dərin hörmət və sevgilərlə,

Sizin MEHRİBAN".

## Biz Şuşamızı qaytardıq! Bu əlamətdar tarixi hadisə münasibətilə hamınızı təbrik edirəm

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Şuşa şəhərinin işğaldan azad edilməsi münasibətilə xalqımızı təbrik edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində tarixi qələbə ilə bağlı paylaşım edib. Paylaşımda deyilir:

"Bu anlarda bütün xalqımız təsvirəgəlməz qürur və sevinc hissləri keçirir! Şuşa işğaldan azad edilib! Bu münasibətlə bütün həmvətənlərimizə səmimi təbriklərimi çatdırıram!




İllər boyu davam etmiş kədər, həsrət, faciəli hadisələrdən sonra tarixi ədalət bərpa olunur! Vətənimizi müdafiə edən və əzəli Azərbaycan torpaqlarını işğaldan azad edən qəhrəmanlar nəslinin bugünkü igidlikləri Azərbaycan tarixinə əbədi daxil olacaq və hər birimizin yaddaşında həmişəlik qalacaq!

Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi bizim rəşadətli əsgərlərimizin qəhrəmanlığı və igidliyi, dözümlülüyü və qələbə əzmi sayəsində mümkün olur! Vətən naminə canlarından keçmiş şəhidlərimizə Allah rəhmət eləsin!

Əziz qardaşlar və bacılar!

Biz Şuşamızı qaytardıq! Bu əlamətdar tarixi hadisə münasibətilə hamınızı bir daha təbrik edirəm.

Qoy bizim bütün uğurlarımızın və nailiyyətlərimizin, bütün qələbələrimizin qarantı olan xalq-Prezident birliyi günbəgün möhkəmlənsin! Bu gün məhz bu birlik Azərbaycanın öz gücünü nümayiş etdirməsinə imkan yaradır! Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində bizim Prezidentimiz bütün mürəkkəb məsələlərin öhdəsindən uğurla gəlməyi bacarır! Qoy Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!".

# Zəfərlər tədrisi dəyişdirəcək

Azərbaycan Respublikasının Təhsil naziri Emin Əmrullayev noyabrın 1-də Türkiyənin “Haber Global” televiziya kanalına müsahibə verib. Müsahibədə Azərbaycanın təhsil gündəmi müzakirə olunub. Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində həlak olan şagirdlərimiz, dağıntılara məruz qalan məktəblərimiz, işğaldan azad olunmuş bölgələrimizdə təhsil quruculuğu söhbətin əsas məzmununu təşkil edib.

## Emin ƏMRULLAYEV: “Qarabağın yeni tarixini dərslik kitablarına yazacağıq”

### “Biz Azərbaycan ərazisində təhsili bərpa edib uşaqlarımızı məktəblərimizə göndərə biləcəyik”

*– Azərbaycan 30 il öncə işğal edilən torpaqları azad edir. Sizi təbrik edirik. Şəhidlərimizə bir daha Allahdan rəhmət diləyirik. Ermənistanın hərbi təcavüzü nəticəsində məktəblər də dağıntılara məruz qalıb. Bölgələrdə dinc yaşayış yerlərində məktəblərin durumu ilə bağlı son vəziyyət barədə nə deyə bilərsiniz?*

– Əvvəlcə minnətdarlıq edirəm ki, verilişə dəvət etmisiniz. Azərbaycan öz tarixinin şanlı səhifələrini yaşayır. 30 il bundan əvvəl işğal edilmiş ərazilər kənd-kənd, addım-addım azad edilir. Təbii ki, qələbələrimiz hər bir azərbaycanlını, Azərbaycanı sevənləri, bütün dünyada olan dostlarımızı və qardaş Türkiyədə olan qardaşlarımızı sevindirir. Fürsətdən istifadə edib, həm sizə, ümumilikdə daim dəstək hiss etdiyimiz qardaş türk xalqına öz minnətdarlığımı bildirmək istəyirəm. Bu ağır, şərəfli günlərdə həm türk mediası, həm türk vətəndaşları, Türkiyə dövləti daim yanımızda oldu. Fürsətdən istifadə edib Türkiyənin Milli təhsil naziri Ziya Səlçuka öz minnətdarlığımı bildirmək istəyirəm. O da bizimlə birlikdə olduğunu ifadə etdi. O ki qaldı davam edən hərbi vəziyyətə, bilirsiniz ki, 27 sentyabrdan Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti hərbi təcavüzə başlayıb. Təbii ki, Azərbaycan Ordusu çox qısa bir zaman ərzində cəbhədə hərbi üstünlüyə nail olub. Hərbi vəziyyəti ölkəmizin xeyrinə dəyişə bilib. Biz hər gün cəbhədən xoş xəbərlər alırıq və bu, bizi sevindirir. Amma, təəssüf doğuran məsələ ondan ibarətdir ki, müharibə yalnız cəbhədə və döyüş meydanında getmir. Özünün məğlub olmağını görən düşmən mülki yerlərə, o cümlədən yaşından asılı olmayaraq Azərbaycan vətəndaşlarına hücumlar edir. Bunlar heç bir insani və mənəvi normalara sığmayan hərəkətlərdir. Bu günə qədər bizim artıq 50-yə qədər məktəbimiz, təhsil müəssisəmiz bu və ya digər şəkildə dağıntılara məruz qalıb. Eyni zamanda, Allah rəhmət etsin, müxtəlif yaşlarda, müxtəlif siniflərdə oxuyan 9 şagirdimiz dünyasını dəyişib. Onların böyük əksəriyyəti Gəncədə, Bərdədə, Naftalanda (bu bölgələr birbaşa cəbhə xəttinin yanında olan bölgələr deyil) yerləşən məktəblərin şagirdləridir. Bu hücumlar, raket atəşi cəbhə xəttindən kənarda olan infrastruktura və dinc əhaliyə qarşı törədilib. Bunun bir adı var – terror. Təbii ki, biz azərbaycanlıları belə mənəviyyatsız hərəkətlərlə qorxutmaq və bizi istədiklərimizdən uzaqlaşdırmaq mümkün olmayacaq. Mən bir daha əminliyimi qeyd etmək istəyirəm ki, Azərbaycan Ordusu, cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün Azərbaycan öz ərazisini düşməndən azad edəcək. Təbii ki, biz bütün Azərbaycan ərazisində təhsili bərpa edib uşaqlarımızı məktəblərimizə göndərə biləcəyik.

*– Hazırkı durum necədir? Orada şagirdlər təhsil ala bilirlərmi? Məktəblərə gedə bilirlərmi? Bir də dinc yerlərə hücumlar davam edir. Şagirdlər psixoloji cəhətdən orada hansı durumdadırlar? Bu nöqtədə çalışmalarınız varmı?*

– Burada bir neçə məsələ var. Biz 30 ildir ki, müharibə şəraitində yaşayırıq. Cəbhəyanı bölgələrdə ermənilər tərəfdən atəşkəsin pozulması müşahidə edilirdi. Ancaq hərbi hücumların ilk günlərində ermənilərin Mingəçevirə, Ağcabədiyə, Tərtərə, Goranboya, Ağdama, Fizuliyə və digər ərazilərimizə atəş açması ilə həmin yerlərdə olan məktəblər fəaliyyətini dayandırmalı oldu. Nəticədə, 1200-ə qədər məktəbdə tədris tamamilə dayandırıldı. Bu iki proses yaradır: bir tərəfdən, həm öyrənmə dayanır, digər tərəfdən psixoloji olaraq bu cür vəziyyət uşaqların ümumi vəziyyətinə, təbii ki, yaxşı təsir etmir. Həm aidiyyəti beynəlxalq təşkilatlarla, YUNİSEF-lə, eləcə də Təhsil Nazirliyinin yerli təşkilatları ilə birlikdə uşaqlara dəstək göstərməkdə davam edirik. Amma, səmimi deyim ki, bu, asan bir vəziyyət deyil. Ümid edirik ki, çox qısa bir zaman ərzində Azərbaycan Ordusu zəfər əldə edəcəkdir. Və biz həmin şagirdləri daha yaxşı, təmirli, ən yaxşı məktəblərə oxumağa göndərə biləcəyik.



### “Qarabağın ən yeni tarixinin səhifələrini yazmalıyıq”

*– Məktəblərdə tədris olunan dərslərdə bir dəyişiklik ediləcəkmi? Çünki son 30 il ərzində işğal altında olan torpaqlar var. Artıq onlar işğal altında deyil. İşğal altında olan torpaqların siyahısı var. Bu adlar dərsliklərdə öz əksini tapacaqmı?*

– Mən sizə öz təcrübəmi bölüşüm. Mən o nəsli təmsil edirəm ki, məktəbə başladığım dövrdən Azərbaycan ərazisi işğal olunmağa başlayıb. Mən 1989-cu ildə məktəbə getmişəm. Bu, Birinci Qarabağ müharibəsi dövrünə düşür. Çox uzun müddətdir ki, Azərbaycanda dərsliklərdə ərazilərimizin işğal tarixi ilə bağlı mövzular yer alırdı. Artıq hazırkı dönəmdə, bu, bir dönüş nöqtəsidir ki, dərsliklərimizdə artıq çox dəyişikliklərə lüzum yaranıb. O mənada ki, artıq həmin torpaqlar işğaldan azad edilib. Dərsliklərimizə bu tarixləri salmalıyıq. Qarabağın yeni tarixini dərslik kitablarına yazacağıq. Eyni zamanda, hazırda bildiyiniz kimi, dərslər distant formada keçirilir. Və bu, bizə imkan verir ki, həmin tədris planını hər gün teledərslər dediyimiz formatda dəyişək. Müəllimlərimiz artıq ən yeni tariximizi şagirdlərə çatdırırlar. Əlavə olaraq bizim məktəblərdə dünya tarixi, Azərbaycan tarixi ilə yanaşı əlavə kurslar kimi Qarabağ tarixini, türk tarixi dərslərini də keçirlər. Biz Qarabağımızın tarixini daim öz şagirdlərimizə, öz vətəndaşlarımıza öyrətməkdə davam etmişik. İndi Qarabağın ən yeni tarixinin səhifələrini yazmalıyıq və dərsliklərə əlavə etməliyik. Bu, Azərbaycanın hər bir vətəndaşına, xüsusilə də Təhsil Nazirliyinə böyük bir qürur yaşadan məsələdir. Ona görə də bölgələrdə tezliklə həmin dərslərin tədrisinin bərpa edilməsini gözləyirik.

### “Uşaqlarımız öz ata-baba torpaqlarında oxuyacaqlar”

*– Azad edilən çox sayda qəsəbələr, kəndlər var. Oralarda məktəblər var. Azad olunan torpağa Azərbaycan xalqı dönəcək, öz ata yurdlarında təkrar yaşamağa başlayacaqlar. Oradakı məktəblərlə, yeni məktəblərin açılması ilə bağlı bir hazırlıqlar varmı? Əvvəlki məktəblərdə tədris yenidən davam etdiriləcəkmi?*

– Mən bir neçə məsələni qeyd etmək istəyirəm. Bir məsələ məktəblərin bərpası, tikilməsi, onların işğaldan azad olunan ərazilərə köçürülməsi ilə bağlıdır. Çünki Azərbaycanın əraziləri işğal ediləndə bir çox məktəblərin, kiçik kəndlərdən olan məktəblərin bərpası dayandırıldı. Bizim işğal altında olan elə rayonlarımız var idi ki, onların məktəbləri Azərbaycanın bütün ərazisində var idi. Bakıda, Gəncədə də var idi. Deyək ki, Ağdam, Kəlbəcər məktəbləri. İndi bu məktəblər öz yerlərinə qayıdır. Bu məsələnin bir tərəfidir. Mənə elə gəlir ki, məsələnin ikinci, psixoloji tərəfi də var. Məsələn, mən bir misal çəkim. Biz məktəbdə oxuduğumuz dövrdə mənim sinif yoldaşlarım var idi ki, onlar həmin bölgələrdən idilər. Həmin məktəblərdə bir uşaq 11-12 məktəb dəyişirdi.

İndi böyük iş yaranır ki, həmin uşaqlar öz məktəblərinə qayıdırlar. Öz yerlərində, bizim dediyimiz kimi, öz ata-baba ocaqlarında məktəbə gedirlər. Bu məsələnin bir mənəvi tərəfi də var. Bu hadisələrin təhsilə, insanlarımızın düşüncəsinə böyük təsiri var. Yəni, o mənada ki, bizim artıq nəyi nə vaxt itirmişik yox, nəyi qazanmışıq kimi bir tədris planımız olacaq. İnandığım bundan ibarətdir ki, qarşıda bizi istər təhsil, istər iqtisadiyyat, istərsə də ümumi ideoloji baxımdan, yəni, insanlarımızın milli kimliyi baxımından çox fərqli bir dövr gözləyir. Mən təbii ki, bu mənada hər bir Azərbaycan vətəndaşı kimi çox böyük qürur hissi keçirirəm.

### Yeni bir kimliklə, yeni bir hisslə, yeni sevinclə...

*– Tarixi bir dönəmdən keçirik. Bu tarixi dönəmdə Azərbaycanın gənclərinə, şagirdlərə bir mesajınız varmı?*

– Biz tamamilə yeni bir dövrə qədəm qoyuruq. Bu dövrün mahiyyəti ondan ibarət olacaq ki, biz artıq işğaldan azad edilmiş torpaqlara qayıdırıq. Və həmin yerlərdə yeni bir həyat başlayacaq. Bildiyiniz kimi cənab Prezidentin müvafiq fərmanı ilə həmin yerlərdə müvəqqəti komendaturalar yaradılır. Müvafiq siyahıyaalınmalar gedir. İnandığımız bundan ibarətdir ki, hər bir Azərbaycan gənci yeni bir dövrə yeni bir kimliklə, yeni bir hisslə, yeni sevinclə qədəm qoyur. Bundan sonra da əldə edilmiş qələbələrin davamlı, uğurların dayanıqlı, uzunmüddətli olması üçün hər bir gənc əlindən gələni etməlidir.

*– Savaşın yaşandığı bir sahə informasiya sahəsidir. Orada da intensiv mübarizə yaşanır. Özəlliklə azərbaycanlı gənclərə bu informasiya mücadiləsində uğurlu ola bilmələri üçün nələri tövsiyə edə bilərsiniz?*

– Çox düzgün qeyd etdiniz. İndiki müharibələr əsrlərdən əvvəlki müharibələrdən həm texnoloji, həm də onun aparılması baxımından çox fərqlidir. Eyni zamanda bu müharibələr həm də sosial media üzərindən və insanların qavraması üzərindən də aparılır. Mənə elə gəlir ki, əgər 90-cı illərin əvvəllərində Azərbaycan müharibədə itirən, işğala, təcavüzə məruz qalan tərəf idisə, bununla belə, bizim o zaman insanımızın bu bacarıqlarının olmaması, Azərbaycanın dünyaya çıxışının az olması bununla nəticələndi ki, ermənilərin digər ölkələrdə diasporasının olması və təsir imkanlarının çoxluğu bir sıra dövlətlər tərəfindən bizə qarşı tamamilə haqsız qərarların qəbulu ilə müşahidə edilirdi. İndi, belə deyil. Azərbaycan gəncləri indi çox yaxşı dil bilir, həm texnologiyadan istifadə, mesajları çatdıra bilmək bacarıqları var. Biz tamamilə fərqli bir dövrdəyik. Mənə elə gəlir ki, son 30 gün ərzində biz bunu çox yaxşı müşahidə etdik ki, bir çox hadisələrin vaxtında və düzgün dünyaya çatdırılmasında məhz gənclər, tələbələr çox böyük zəhmət çəkdilər. Bu davamlı bir məsələdir. Buna görə də biz gərək o bacarıqları mənimsəyək və daim inkişaf etdirək.

### “İstədiyimiz budur ki, həm şagirdlər, həm müəllimlər tezliklə məktəbə qayıtsınlar”

*– Bir tərəfdən də pandemiya var. Və davam edir. Bildiyim qədəri ilə Azərbaycan 2 noyabrdan uzaqdan təhsilə keçir. Bu proses necə kecəcək?*

– Biz hazırda iki cəbhədə vuruşuruq. Təbii ki, COVID-19 pandemiyası ilə üz-üzə qalmağımız da ciddi bir problemdir. Biz 3 mart tarixindən məktəblərin tamamilə dayandırılmasına nail olduq. Ötən tədris ilindən dərslər distant formatda keçirildi, 15 sentyabrdan isə kifayət qədər mərhələli şəkildə bərpa olundu. Amma sonda yenə də vəziyyətin bu qədər müəyyən mənada pisləşməsi bizə imkan vermədi ki, dərsləri davam etdirək. Növbəti həftə dərslər onlayn başlayacaq. Həm teledərslər, həm müxtəlif onlayn platformalar üzərindən biz bu dərsləri həyata keçiririk. Yaxşı xəbər ondan ibarətdir ki, əgər mart ayında bizim cəmi 50-60 min şagirdin, təhsilalanın email-i var idisə, hazırda 1 milyona yaxın məktəbli şagirdin email-i var. Onlar onlayn tədrisə qoşula bilirlər. Müəllimlərimizin böyük bir hissəsinin, yüz mindən artıq müəllimin artıq onlayn dərs vermək bacarığı var. Ona görə də inanırıq ki, növbəti həftələrdə onlayn tədris davam edəcək. Amma, təbii ki, istədiyimiz budur ki, bu məsələ tez bitsin və həm şagirdlər, həm müəllimlər məktəbə qayıtsınlar.

### “Təhsil sahəsində əməkdaşlığımız daha da dərinləşməli və irəliyə getməlidir”

*– İnşallah. Bir çox sahədə Azərbaycanla Türkiyənin işbirliyi vardır. Təhsil sahəsində də bir işbirliyi varmı?*

– Bizim Türkiyə ilə istənilən sahədə olan münasibətlərimiz yüksək səviyyədədir. İnsanlararası, qardaşlıq münasibətləri də daha yüksək səviyyədədir.Təhsil sahəsində də belədir. Ötən il biz azərbaycanlı müəllimləri Türkiyəyə 2 həftəlik STEAM təlimlərinə göndərdik. Bu, yeni texnologiyaların məktəblərdə tətbiq edilməsi istiqamətində olan bir layihə idi. Bundan başqa, Türkiyənin Ege Universiteti ilə Azərbaycan Dövlət Aqrar Universiteti arasında ikili diplom proqramlarımız var. Bu proqram bu ildən başlanır. O cümlədən də bir çox sahələrdə birbaşa əlaqələr var. Peşə təhsili sahəsində də sıx işbirliyimiz var. Azərbaycandan minlərlə gənc bu gün Türkiyə universitetlərində təhsil alır və kifayət qədər də lazımi biliklər əldə edərək Azərbaycana qayıdırlar. İnandığımız budur ki, bu sahədə əməkdaşlığımız daha da dərinləşməli və irəliyə getməlidir.

*– Azərbaycan universitetlərində Türkiyə ali təhsil müəssisələri də daxil olmaqla ikili diplom proqramları var. Bu barədə nə deyə bilərsiniz?*

– Mən artıq qeyd etdim ki, ikili diplomlar həm də çox yaxşı əlaqədir. Həm Azərbaycan tələbələri Türkiyədə təhsil alsın, həm türkiyəli tələbələr Azərbaycanda öyrənsinlər. Bir proqram Ege Universiteti ilə olan proqramdır. Ümid edirik ki, universitetlərimiz arasında əməkdaşlıq bir az da sıx olacaq və biz daha çox proqramlar görəcəyik. O cümlədən də tələbə mübadilə proqramları çox əhəmiyyətlidir. Yəni Türkiyədəki tələbələrin Azərbaycana gəlməsi, Azərbaycanı öyrənməsi, Azərbaycan haqqında bilməsi çox vacibdir. Təhsil Nazirliyi olaraq biz Türkiyə ilə bu sahədə bir çox layihələri birlikdə həyata keçirmək istərdik.

*– Bu gərgin günlərdə “Haber Global” qrupunu qəbul etdiyiniz üçün sizə təkrar təşəkkür edirik. Çox sağ olun! Bir daha Azərbaycan torpaqlarının işğaldan azad olunmasına görə sizləri təbrik etmək istəyirik.*

– Təşəkkür edirəm.

# Təhsil naziri Abşeron rayon və Sumqayıt şəhər sakinlərini videobağlantı vasitəsilə qəbul edib







Noyabrın 12-də Təhsil naziri Emin Əmrullayev Abşeron rayon və Sumqayıt şəhər sakinlərini canlı videobağlantı vasitəsilə qəbul edib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2020-ci ilin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq həyata keçirilən qəbulda Abşeron rayonunda və Sumqayıt şəhərində müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Təhsil naziri vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Videoqəbulda vətəndaşlar əsasən, müəllimlərin yerdəyişməsi, işlə təmin olunma, həmçinin digər məsələlərlə bağlı müraciət ediblər.

Qeyd edək ki, videoqəbulun təşkil edilməsində əsas məqsəd vətəndaşların Təhsil Nazirliyinə müraciət imkanlarını müasir texnologiyalardan istifadə etməklə genişləndirmək, regionlarda yaşayanlara nazirliyin inzibati binasına gəlmədən vəzifəli şəxslərlə videobağlantı vasitəsilə birbaşa əlaqə imkanının yaradılmasıdır.

## "Rəqəmsal bacarıqlar" layihəsinin İdarəetmə Komitəsinin 14-cü görüşü




Noyabrın 11-də "Rəqəmsal bacarıqlar" layihəsi çərçivəsində məsələlərin müzakirəsi və qərarların qəbul edilməsi məqsədilə layihənin İdarəetmə Komitəsinin 14-cü görüşü keçirilib.

Təhsil naziri Emin Əmrullayevin sədrliyi ilə keçirilən görüşdə beynəlxalq "Alqoritmika" şirkətinin nümayəndələri və layihə rəhbəri tərəfindən layihənin 2020-2021-ci tədris ilində əhatə dairəsinin genişləndirilməsi və inkişafı istiqamətində görülən işləri əks etdirən təqdimat nümayiş olunub. Görüş zamanı hazırda məktəblərdə layihənin səmərəli tətbiqi üçün həyata keçirilən fəaliyyətlərin nəticələrinin və hədəflərin müzakirəsi də aparılıb.

Daha sonra "Alqoritmika" şirkətinin nümayəndələri yeni təşəbbüslərlə çıxış ediblər.

Qeyd edək ki, cari tədris ilində "Rəqəmsal bacarıqlar" layihəsinin əhatə dairəsi genişləndirilib. Layihə hazırda 9 şəhər və rayon üzrə 222 məktəbdə tətbiq edilir və 120000-dək şagirdi əhatə edir. Şagirdlərdə alqoritmik düşüncə, məntiqi təfəkkür, layihə qurmaq bacarıqlarının inkişafı və proqramlaşdırmanın əsaslarını öyrətmək məqsədilə həyata keçirilən layihəyə 2017-2018-ci tədris ilində start verilib.

## Təhsil Nazirliyinin Mətbuat Xidmətinin məlumatı

Ölkəmizdə mövcud pandemiya şəraiti ilə əlaqədar olaraq, Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzində ("Qaynar xətt" xidməti, telefon: 146-1, 146-2, 146-3, 146-4) işçi sayı məhdudlaşdırılıb.

Vətəndaşlardan "Qaynar xətt"lə əlaqə yaradarkən işçi sayının az olduğunu nəzərə almaları xahiş olunur.

Qeyd edək ki, nazirliyin rəsmi *office@edu.gov.az* elektron poçt ünvanına da müraciət edə və elektron resurslarında *(www.edu.gov.az; www.ict.edu.az)* təqdim edilən müxtəlif e-xidmətlərdən yararlana bilərsiniz.

## Ali təhsil müəssisələri üçün məsafədən tədris imkanları

Təhsil Nazirliyi tərəfindən təlim-tədris prosesinin məsafədən təşkili məqsədilə ali təhsil müəssisələri üçün "Microsoft Teams" və əlavə olaraq "Cisco Webex" platformasından ödənişsiz istifadə imkanları təqdim edilib. Platformalar üzrə nazirlik tərəfindən müvafiq testlər həyata keçirilib ki, nəticədə hər iki həll onlayn dərslərin təşkili üçün təhlükəsiz, sürətli və dayanıqlı hesab olunub. Platformalardan istifadə üzrə müəllim və tələbələr üçün davamlı olaraq təlimlər təşkil olunur, təlimatlar təqdim edilir və texniki dəstək göstərilir.

Hazırda 32 ali təhsil müəssisəsində sözügedən platformalardan istifadə olunur, 6 ali təhsil müəssisəsi isə qoşulmaq üzrədir. Onlayn dərslərə qoşulmaq üçün lazımi şəraiti olmayan müəllim və tələbələrin faydalanmaları üçün 17 region üzrə 28 məktəbdə internet-kompüter mərkəzləri fəaliyyət göstərir.

Təhsil müəssisələri sözügedən platformalar vasitəsilə videobağlantı imkanı əldə edərək məsafədən təhsil vermək, müəllim-tələbə müzakirəsinin təşkili üçün interaktiv alətlərdən istifadə, sillabus, mühazirə kimi müxtəlif dərs materialları və daha böyük həcmli materiallar ötürmək, təqvim aləti vasitəsilə onlayn dərsləri planlaşdırmaq, qrup işinin təşkili və qiymətləndirmə alətlərindən istifadə etmək kimi geniş imkanlardan faydalana bilirlər.

## Şagirdlərin yerdəyişməsinə başlanılır



16 noyabr saat 11:00-dan etibarən şagirdlərin elektron yerdəyişməsi portalı aktiv olacaq. Şagird yerdəyişməsinin elektronlaşdırılması üzrə sistemdən istifadə üçün *www.sy.edu.az* portalına daxil olaraq qeydiyyatdan keçmək lazımdır.

Şagird yerdəyişməsinin elektronlaşdırılması bu prosesdə məktəb və valideyn arasında olan məsafənin azaldılmasına, valideynin təhsil müəssisəsi ilə təmasının daha şəffaf şəkildə təşkilinə yardım edir.

# “Təhsildə vətənpərvərliyin yeri: reallıqlar və təkliflər”




## Dövlət Bayrağı Gününə həsr olunan seminarda Azərbaycan və Türkiyə mütəxəssisləri mövzunu müzakirə ediblər

Noyabrın 7-də Təhsil Nazirliyi, nazirlik yanında İctimai Şuranın dəstəyi və T-NETWORK platformasının təşkilatçılığı ilə “Təhsildə vətənpərvərliyin yeri: reallıqlar və təkliflər” adlı online seminar keçirilib.

Dövlət Bayrağı Gününə həsr olunan seminarda “Vətənpərvərlik və onun meyarları nələrdir?”, “Necə öyrədirik?” “Necə öyrətməliyik?” sualları ətrafında müzakirələr aparılıb. T-NETWORK-un koordinatoru Cəfər Mənsimi və platformanın tədqiqat və inkişaf üzrə baş mütəxəssisi Qoşqar Məhərrəmovun moderatorluğu ilə keçirilən müzakirələrdə Azərbaycan və Türkiyədən olan qabaqcıl təhsil xadimləri iştirak edib.

Seminar Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

## Seminarda Təhsil nazirinin müavini Firudin Qurbanov çıxış edib

Nazir müavini çıxışında qeyd edib ki, müasir dövr - bütün iqtisadi və sosial həyatın transformasiyası ilə xarakterizə olunur.

Sürətlə dəyişən, qloballaşan dünyanın yeni çağırışları ilə xarakterizə olunan çağdaş dövr hadisələrin zənginliyi ilə həyatın bütün sferaları üçün yeni tələblər, yeni yanaşmalar diktə edir.

Qarşılaşdığımız qlobal problemlərin aradan qaldırılması üçün cəmiyyət hansı tip insanın formalaşmasından çox asılıdır.

Bunları nəzərə alaraq, ölkəmizin qarşısında duran prioritet məsələ - XXI əsrin tələblərinə cavab verən bilik və bacarıqlara malik, ənənəvi milli-mənəvi dəyərləri qoruyub saxlayan və bölüşən, Vətənin dinc quruculuğu və müdafiəsinə hazır olan yeni nəsillərin formalaşdırılmasıdır. Bu məsələnin həll edilməsinin əsas aləti uşaq və gənclərin milli vətənpərvərlik ruhunda tərbiyəsidir.

Ölkəmizdə təhsilalanların vətənpərvərlik, milli-mənəvi, ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması həmişə məktəbin ən ümdə vəzifələrindən hesab edilmişdir.

Tərbiyənin strateji istiqamətləri müasir Azərbaycanın qurucusu, ulu öndər Heydər Əliyev tərəfindən lakonik şəkildə bu cür ifadə edilmişdir: “Məktəb gənc şəxsiyyətin bir vətəndaş kimi təşəkkülündə, gənclərin vətənpərvərlik tərbiyəsində böyük rol oynayır. Hər bir gənc vətəndaş öz ölkəsinin alovlu vətənpərvəri olmalıdır”.

Bir məqamı da xüsusi qeyd etmək lazımdır ki, ideya müəllifi və banisi ulu öndər Heydər Əliyev olan azərbaycançılıq məfkurəsi ölkəmizin milli ideologiyasına çevrilməklə hər bir ölkə vətəndaşının həyat yolunu, bu günümüzə və gələcəyə baxışlarını müəyyənləşdirmişdir. Bu ideologiyanın əsasını isə Vətənə, milli mənsubiyyətə, milli-mənəvi dəyərlərə, dövlətə və dövlətçiliyə sadiqlik, ümumbəşəri dəyərlərə tolerantlıq təşkil edir.

Məhz azərbaycançılıq milli ideologiyasından irəli gələn vətənpərvərlik ideyaları hər bir təhsil müəssisəsinin uşaq və gənclərlə aparılan tərbiyə işində başlıca yer tutur. Məktəblərdə təhsil alan uşaq və gənclər savad, dünyagörüşü və intellektual potensial baxımından fərqlənə bilərlər. Lakin bu amillərdən asılı olmayaraq, hər bir uşaq və gəncin vətənpərvər ruhda böyüməsi, tərbiyə alması birmənalı qəbul edilməlidir.

Əlbəttə, heç kim sadəcə nəsihət yolu ilə vətənpərvər olmur. Burada söz və əməl birliyi, fərdi nümunə vacib şərtdir. Bu gün hər bir Azərbaycan məktəbində doğma vətənin ayrılmaz parçası olan Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş qəhrəman vətəndaşlarımız, erməni işğalçılarla vuruşlarda əsgərlərimizin misilsiz rəşadət nümunələri yetişməkdə olan gənclərimiz üçün böyük vətənpərvərlik məktəbidir. Bir sıra məktəblərimiz döyüşlərdə həlak olmuş şəhidlərimizin adını daşıyır. Bütün bunlar şagirdlərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır.

Ölkəmizin sosial-iqtisadi cəhətdən dinamik inkişafı, ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Vətənimizin tərəqqisi, beynəlxalq aləmdə ölkəmizin nüfuzunun durmadan yüksəlməsi, 30 ilə yaxın müddətdə işğal altında qalan Qarabağın işğaldan azad olunması istiqamətində möhtəşəm fəaliyyətləri hər bir vətəndaşımız, gənclərimiz üçün böyük vətənpərvərlik nümunəsidir.

Təhsil müəssisələrimizdə vətənpərvərliklə bağlı aparılan sistemli işlərdə uşaq və gənclərin Azərbaycanın Dövlət rəmzlərinə məhəbbət ruhunda tərbiyəsi mühüm yer tutur. Bu gün məktəblərimizdə elə bir şagird tapılmaz ki, o, ölkəmizin Dövlət Himnini əzbər bilməsin və oxumağı bacarmasın. Elə bir kəs yoxdur ki, Dövlət Bayrağımızın mahiyyətini, rəmzi mənasını mənimsəməmiş olsun.

Cari il sentyabrın 27-dən Qarabağda aparılan əks-hücum əməliyyatları dövründə vətəndaşlarımızda bayraq sevgisi, işğaldan azad olunan Vətən torpaqlarında müqəddəs üçrəngli bayrağımızın qaldırılması halları əsil vətənpərvərlik nümunəsi kimi qəlbimizi fərəh hissi ilə doldurur.

Yeri gəlmişkən, bu il həmçinin Dövlət Bayrağının qəbul edilməsindən 102 il ötür, 10 ildir ki, noyabrın 9-u hər il ölkəmizdə Dövlət Bayrağı Günü kimi qeyd olunur.

Başqa bir tarixi məqama da toxunmaq istərdim. Bildiyiniz kimi, Azərbaycan Xalq Cümhuriyyəti qurulan zaman Bakı şəhəri daşnak erməni-bolşevik istilasına məruz qalmışdır. Belə bir tarixi ağır şəraitdə Azərbaycanın köməyinə gələn türk qardaşlarımız 1918-ci il sentyabrın 15-də general-leytenant Nuru Paşanın komandanlığı altında Qafqaz İslam Ordusu və yeni yaranan Azərbaycan Milli Ordusu ilə Bakını xarici işğalçılardan azad etdikdən sonra Milli Hökumət Gəncədən Bakıya köçdü və bir neçə mühüm qərarlar verdi. Onlardan biri də 1918-ci il noyabrın 9-da qəbul edilmiş Dövlət Bayrağı haqqında idi.

Bayrağımızın üçrəngli olması ideyasının müəllifi görkəmli Azərbaycan ziyalısı, türkçülük ideyasını təbliğ edən Əli bəy Hüseynzadədir.

Türk milli şüurunun təkamülü və onun orta əsrlərin ümmət fəlsəfəsindən milliyyət müstəvisinə çevrilməsi də Əli bəy Hüseynzadənin üç düsturu ilə bağlıdır.

Bu düsturun təməlində “Türkləşmək, müasirləşmək və islamlaşmaq” fəlsəfəsi dururdu. O düstur bu gün milli ideologiyamızın əsas prinsipləri kimi bayrağımızın rəngində əksini tapır.

Müstəqil Azərbaycan bu gün həmin yolla Türkiyə Cümhuriyyəti ilə “bir millət, iki dövlət” inancı ilə qardaş kimi əl-ələ, çiyin-çiyinə bərabər gedirlər.

İnkarolunmaz həqiqətdir ki, dünyada Azərbaycan və Türkiyə kimi dili, dini, ruhu, mənəviyyatı bir-birinə yaxın olan başqa bir dövlət və xalq yoxdur. Bu xalqlar həqiqətən də bir-birinin arxasında duran, bir-birinin dərdinə və sevincinə şərik çıxan doğma qardaşdırlar. Türkiyənin İstiqlal savaşında, Çanaqqala döyüşlərində türk qardaşları ilə birlikdə Azərbaycan övladlarının da şəhid düşməsi, 1918-ci ildə erməni daşnakların bolşevizmi əllərində bayraq edərək Azərbaycan əhalisini soyqırıma məruz qoyarkən, “Göydən enmiş mələk adlandırılan” qəhrəman Nuru Paşanın başçılığı ilə türk əsgərlərinin onların imdadına yetişməsi və kütləvi, dəhşətli qırğının qarşısının alınması bu qardaşlığın yaxın tariximizdəki bariz nümunələridir. Bildiyiniz kimi, 1918-ci ildə Bakıda hakimiyyəti ələ keçirən Daşnak- bolşevik qaragüruhunun başçısı Stepan Şaumyanın rəhbərliyi ilə əvvəlcədən hazırlanmış plana əsasən həmin ilin martın 31-dən aprelin 2-dək təkcə Bakıda 12 min nəfərdən çox azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmişdir. Bununla yanaşı Şamaxıda, Qubada və digər bölgələrdə 10 mindən artıq azərbaycanlı öldürülmüşdü. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyevin sərəncamı ilə 31 mart - Azərbaycanlıların Soyqırımı Günü kimi hər il qeyd olunur. Azərbaycan xalqı Bakının qurtuluşunda türk ordusunun tarixi xidmətlərini heç zaman unutmur. Bakıda onların şərəfinə xatirə abidəsi də ucaldılıb. Bunlar heç zaman yaddaşımızdan silinməz.

Nə xoşbəxtik ki, biz bu gün də bir-birimizin yanındayıq. Hazırda Qarabağda Azərbaycan ordusunun uğurlarında Türkiyənin əvəzedilməz dəstəyini hər zaman, hər an hiss edirik. Əsas gücümüz “bir millət, iki dövlət”in birliyindədir. Bu birlik əbədidir, sarsılmazdır və heç bir qüvvə buna təsir edə bilməz.

Bu gün Vətənimizdə Azərbaycan və Türkiyənin bayraqlarının qoşa dalğalanması qardaşlığın simvoluna çevrilmişdir. Bu bayraqlar ölkəmizin varlığını və gücünü dünyaya, həmçinin dostlarımıza və düşmənlərimizə tanıdır. Böyük iftixar hissi ilə qeyd edilməlidir ki, üçrəngli bayrağımız 30 ildən sonra işğaldan azad olunan Qarabağda dalğalanır.

Milli çağdaş tariximiz üçün çox əhəmiyyətli olan məsələyə toxunmaq istərdik. Bildiyiniz kimi, Azərbaycanın 30 ildən artıq bir müddətdə işğal altında qalan torpaqlarımızın azad olunmasına, doğma Qarabağımıza Azərbaycanın suveren hüquqlarının təmin edilməsinə daim dəstək vermiş Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinin Prezidenti sayın Rəcəb Teyyub Ərdoğana dərin minnətdarlığımızı bildiririk.

Daha sonra çıxış edən Türkiyə Cümhuriyyəti Milli Təhsil nazirinin məsləhətçisi Erhan Angın “bir millət, iki dövlət” sevgisinin əbədi olduğunu qeyd edərək vətənpərvərlik anlayışının türk dövlətləri üçün həmişə aktual olduğunu bildirib. Türkiyə təcrübəsindən nümunələr gətirən nazir məsləhətçisi həyat bilgisi dərsində şagirdlərin ölkəsinin müstəqilliyi və fərdi müstəqilliyi arasında əlaqənin tapılması, insan haqları və demokratiya dərsində birlikdə yaşamaq üçün bir yurda niyə ehtiyac olduğu, Türkiyənin inkişafı ilə öz vəzifə və öhdəlikləri arasında əlaqənin qurulması, bu baxımdan məsuliyyətlərinin nə olduğu, milli birliyin cəmiyyətin inkişafına nə kimi töhfəsinin olduğunu araşdırmaq kimi məqamlarının öndə olduğunu deyib.

Seminarda çıxış edən Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Şahlar Əsgərov bildirib ki, vətənpərvərliyin açarı təhsilin məzmunundadır və bu məzmunda vətənpərvərlik təbii olmalı, vətənpərvərlik bütün tədris müddətində təbii olaraq gənclərə aşılanmalıdır. Vətənsevərliyin meyarını da təqdim edən professor qeyd edib ki, vətənsevərliyi vətənə sevginin özünə sevgiyə olan nisbətini meyar götürərək ölçə bilərik. Surətdə vətənsevərlik, məxrəcdə özünə sevgi yer alır. Özünə sevgi az olarsa, bu əmsal çox böyük, özünə sevgi çox böyük olarsa, bu əmsal kiçik olar.

Seminar Təhsil nazirinin müşaviri Elnur Nəsibov, şəhid general Polad Həşimovun anası Səmayə Həşimova, “Milliyet” qəzetinin təhsil şöbəsinin redaktoru Abbas Güçlü, Fide Okullarının yaradıcısı Ali Koç, qabaqcıl müəllim və yazıçı Ahmet Naç, Xocalı rayon Yaloba kənd orta məktəbinin 9-cu sinif şagirdi Fərhad Quluzadənin çıxışları və təklifləri ilə davam edib. Natiqlər yerli və xarici təcrübəyə istinad edərək bildiriblər ki, vətənpərvərlikdə valideyn və müəllim məsuliyyətinin çox böyük rolu var. Həmçinin vətənsevərliyin inkişafı üçün dəyərlər təhsili proqramı, müxtəlif qısametrajlı film, animasiyalar hazırlamaq və zənginləşdirmək, dərsdənkənar ziyarətlər təşkil etmək, valideyn və məktəb əməkdaşlığını inkişaf etdirmək, böyük şəxsiyyətləri təbliğ etmək və vətənpərvərliklə bağlı yeni-yeni hekayələr və kitablar yazmaq əhəmiyyətlidir. Vətənpərvərliyin inkişafı üçün şagirdlərə vətənə aid olduğunu hiss etdirməli, onlarda aid olmaq hissi, aid olduğu cəmiyyətə töhfə vermək niyyəti formalaşdırmalı, ortaq bir xəyal və gələcək idealı təqdim etməli, əzbərçilikdən çıxmalı, qəhrəman yetişdirmək üçün, uşaqların həyatını məğlubiyyətlərlə keçməsinə icazə verməməli, onları zəfərə kökləməliyik.

Seminarın moderatorları təqdimat edərək bildiriblər ki, təşkilatçılardan biri olan T-NETWORK təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının əsas məqsədi yerli və əcnəbi təhsil işçilərinin kommunikasiyasına şərait yaratmaq, çağdaş təhsil mövzularında müzakirələr və tədqiqatlar aparmaq, təhsilverənlərin ehtiyaclarını müəyyənləşdirmək, bu yolla müəllimlərin peşəkarlıq səviyyəsini artırmaq, yeni əməkdaşlıqlara səbəb olmaq, bir sözlə, inkişaf sinerjisi yaratmaqdır.

Qeyd edək ki, Təhsil Nazirliyinin rəsmi “Facebook” səhifəsi üzərindən canlı yayımlanan seminara minlərlə izləyici qatılıb.



8 noyabr 2020-ci il. Müasir Azərbaycan tarixinə qızıl hərflərlə yazılan, xalqımızın heç vaxt unutmayacağı tarixi bir gün. Ali Baş Komandan İlham Əliyev Azərbaycanın qeyrət qalası, mədəniyyətimizin beşiyi, 28 il mənfur ermənilərin tapdağı altında qalan dilbər guşəmiz Şuşanın işğaldan azad edildiyini bəyan etdi. Ölkə Prezidenti İlham Əliyevin başçılığı altında Müzəffər Azərbaycan Ordusunun əsgərləri tarixdə misli görünməmiş qəhrəmanlıq göstərərək qanları, canları bahasına uzun illər həsrətində olduğumuz Şuşanı bizə qaytardı. Bu qürurverici xəbərdən heç iki gün keçməmiş Ali Baş Komandan xalqımıza daha böyük bir müjdə verdi. Qarabağ tamamilə işğaldan azad olundu. Biz ölkə Prezidenti cənab İlham Əliyevin illərdir apardığı məqsədyönlü siyasəti, böyük iradəsi, Şanlı Ordumuzun şücaəti ilə, şəhidlərimizin qanı bahasına böyük bir tarixi qələbə qazandıq. Belə bir tarixi günlərdə Şuşa təhsil işçiləri öz sevinclərini bizimlə bölüşüb.

# Əziz Şuşa, biz qayıtmışıq!

## Şuşalı müəllimlər doğma yurdda keçəcəkləri ilk dərsi səbirsizliklə gözləyirlər

### "Bu sevinci bizə yaşadan Ali Baş Komandana minnətdaram"

*Şuşa şəhər 1 nömrəli tam orta məktəbin müəllimi Nazilə Ələkbərova* doğma yurda getmək üçün çox səbirsizləndiyini deyir: - Mənim uşaqlığım, gəncliyim füsunkar gözəlliyə malik olan Şuşada keçib. Gəncliyimin ən gözəl illəri Hüsü Hacıyev adına 4 nömrəli tam orta məktəbində, 2 nömrəli riyaziyyat təmayüllü internat məktəbində müəllim işləyən illərə təsadüf edir. İnternat məktəbində Azərbaycanın digər rayonlarından oxumağa gələn uşaqları Şuşanın mədəni, tarixi abidələri, fauna-florası haqqında məlumatlandırdığım günləri fəxrlə xatırlayıram.

28 il 6 aylıq ayrılıqdan sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin dönməz iradəsi və qüdrətli Azərbaycan Ordusunun şücaəti ilə ruhumuzda yaşatdığımız doğma Şuşada üçrəngli bayrağımız dalğalanır. Bu sevinci bizə yaşadan Ali Baş Komandan İlham Əliyevə minnətdaram. Əsgər və zabitlərimizə eşq olsun deyir, şəhidlərimizə rəhmət diləyir, qarşılarında baş əyirəm.

Cənab Prezidentimiz İlham Əliyevin Azad Şuşamızı dirçəldəcəyindən əminəm. Əvvəlkindən daha abad, daha müasir olacaq. İnci adına layiq olacaq mənim Doğma Şəhərim...

### "Bütün torpaqlarımızın düşmən tapdağından qurtulduğunu eşitmək bizim üçün böyük sevinc idi"

*Şuşa rayonu Malıbəyli kənd tam orta məktəbinin ibtidai sinif müəllimi, Əməkdar müəllim Nailə İbrahimova* fərəh dolu günlər yaşadığını bildirir. O, Şuşasız keçən 28 ilin çox ağrılı, əzablı olduğunu deyir: - 1992-ci ildə 366-cı alayın köməyi ilə ermənilər kəndimizi işğal etdilər. Şuşasız, Malıbəylisiz 15 il "Zuğulba" sanatoriyasında, 13 il isə Ramanada dövlətimizin tikib verdiyi evlərdə həsrət dolu günlərimizi, aylarımızı keçirdik.

Prezidentimiz "Şuşa işğaldan azad olundu" xəbərini deyəndə sevincimdən ağladım. Qızlarım, nəvələrim də mənə qoşuldu. Gözümüz həm gülür, həm sevinc yaşı axıdırdı.

Var olsun Prezidentimiz, Azərbaycan Ordusuna eşq olsun!

Şuşanın azad olunmasından sonra bütün torpaqlarımızın düşmən tapdağından qurtulduğunu eşitmək bizim üçün böyük sevinc idi. İnşallah doğma yurda qayıdacağıq, kəndimizi, məktəbimizi dirçəldəcəyik. Kəndimizin gül balalarına yazmaq, oxumaq öyrətmək üçün Allahın izni ilə ömrümün qalanını da sərf edəcəyəm ki, vətənpərvər gənclik yetişdirək.




### "Artıq şagirdlərimə zəfərlərimizdən danışacağam"

*Şuşa rayon 5 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi İlahə İbrahimova* 1983-cü ildə Şuşa şəhərində anadan olub. II sinfə qədər Şuşa şəhər 4 nömrəli orta məktəbdə təhsil alıb. Bütün şuşalılar kimi onun da sevincinin hədd-hüdudu yoxdur. O, həmişə Şuşanın azad olunacağı günü səbirsizliklə gözlədiyini və ümidini heç vaxt itirmədiyini deyir: - Bütün şuşalılar kimi müharibə mənim də həyatımda ağır illər buraxdı. Belə ki, füsunkar gözəlliyə malik olan Şuşadan, səsli-küylü məktəb həyatımdan, çox mehriban sinif yoldaşlarımdan ayrı düşdük. Ancaq qəlbimdə Şuşa həsrəti ilə yaşadım və işğaldan sonra təhsilimi Bakı şəhərində davam etdirdim.

Ən böyük arzum müəllim olub, Şuşa məktəbinin birində doğma şuşalı şagirdlərimə təhsil vermək, tariximizi öyrətmək olub. Beləliklə, 2017-ci ildə MİQ imtahanı verərək, yüksək nəticə ilə Şuşa rayon 5 nömrəli tam orta məktəbinə ibtidai sinif müəllimi kimi qəbul olundum. Bu gün xalqımız kimi mən də həddən artıq sevinirəm ki, Ali Baş Komandanımızın rəhbərliyi ilə Qarabağın möhtəşəm qələbəsinə, Şuşanın işğaldan azad olunmasına nail olduq.

Artıq şagirdlərimə zəfərlərimizdən danışacağam. Torpaqlarımızın işğaldan azad olunması məndə ikiqat sevinc və həvəs yaratdı. Belə ki, tezliklə Qarabağda, doğma Şuşamızda öz həmyerlilərimizin övladlarına təhsil verəcəyəm. Bundan daha böyük xoşbəxtlik ola bilməz. Mən rəhbərimizlə, ordumuzla, xalqımızla, dövlətimizlə fəxr edirəm.

### "Şuşa adını eşidəndə..."

*Şuşa rayon 19 nömrəli tam orta məktəbin direktoru, Əməkdar müəllim Rəfail Məmmədov* şuşalı olduğu üçün fəxr etdiyini bildirir: - Şuşa adını eşidəndə qəlbimdə o qədər acılı-şirinli xatirələr yaranır ki... Bircə onu deyə bilərəm ki, Şuşada doğulmaq, yaşamaq, işləmək özü bir xoşbəxtlikdir. Çünki Şuşa Azərbaycan xalqı üçün son dərəcə müqəddəs, ziyarətgah qədər əziz olan yurd yeridir.

8 noyabr 2020-ci il tarixədək hamımızın qəlbində Şuşanın özü boyda bir nisgil yaşayırdı, çünki Şuşa kimi tarixi bir şəhərimizi itirmişdik. Lakin həmin tarixdə Ulu Tanrının izni, Ali Baş Komandan, hamımızın Prezidenti cənab İlham Əliyevin qətiyyəti nəticəsində Şuşa işğaldan azad edildi. Şuşanın azad edilməsindən sonra daha böyük qələbə sevinci yaşadıq. Qarabağ tamamilə işğaldan azad edildi. Biz qələbə çaldıq. Bu qələbəni biz həmişə fəxrlə xatırlayacayıq.

Qarabağ Azərbaycandır!

### "Şuşalı, qayğısız, atalı-analı günlərim yada düşür"

*Şuşa şəhər 6 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Raisə Fərəcova* da öz sevincini bizimlə bölüşüb: - Mən Şuşada doğulmuşam. Ömrümün 30 ildən çoxunu o cənnət məkanda keçirmişəm.

Uşaqlıq illərimi xatırlayanda gözlərim gülür, yaşadığım şuşalı, qayğısız, atalı-analı günlərim yada düşür.

Təbiətin bu diyara bəxş elədiyi gözəlliyi ata-babalarımız ülvi bir gözəlliyə çevirmişdi. Onun əsrarəngiz, ecazkar gözəlliyi, mədəni mühiti bizi elmə, təhsilə, yaradıcılığa həvəsləndirirdi.

Hər il may ayında Şuşada mahnı bayramı keçirilərdi. Azərbaycanın görkəmli insanları oraya gəlir, mahnı bayramında iştirak edirdilər.

Biz çox həvəslə geyinib-keçinib Cıdır düzünə qalxır, kəklikotu, qaymaqçiçəyini yığa-yığa bayramda iştirak edirdik. O güllərin ətri bizi bihuş edirdi.

Mən Azərbaycan dili və ədəbiyyat müəllimi işləyirəm. M.P.Vaqifin həyat və yaradıcılığını onun məqbərəsi yanında keçirdim. Xurşidbanu Natəvanın həyat və yaradıcılığını onun evində keçirib, şagirdləri Nəvvabın, Zakirin ev-muzeylərinə aparır, onların dəfn yerlərini göstərir, elmə marağı daha da artırırdım.

Allaha şükür, bitdi o həsrət. Şanlı Ordumuzun, Ali Baş Komandanımızın qətiyyətli fəaliyyəti nəticəsində Şuşamız azad olundu. Mən onların qarşısında baş əyir, Şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Allah Ordumuzu və Ali Baş Komandanımız cənab İlham Əliyevi pənahında saxlasın.

### "Biz Qarabağın, Şuşanın geri alınması ümidilə yaşayırdıq"

*Şuşa şəhər 1 nömrəli tam orta məktəbin direktoru Gülnar Qurbanova* deyir ki, həyatının ən xoş və həyəcanlı günlərini Vətən müharibəsinin davam etdiyi 44 gündə yaşayıb. Onun üçün ən yaddaqalan gün isə Şuşanın azad olunması və düşmən üzərində möhtəşəm qələbə çalındığı gündür: - Mən Şuşada dünyaya göz açmışam və erkən yaşlarımda öz elimdən, obamdan didərgin düşmüşəm. Bizim uşaqlığımızın ən acı xatirələri ermənilərin atdığı mərmi səsləri və qorxu içində keçib. Bakıya gəldikdən sonra da oradakı xatirələrim daima gözümün qarşısında idi. Biz həmişə Qarabağın, Şuşanın geri alınması ümidilə yaşamışıq. Nəhayət, cənab Ali Baş Komandan bu xəbəri bizə çatdırdı. Azərbaycanın ərazi bütövlüyünü bərpa edib və 28 illik həsrətə son qoyaraq bizi doğma yurdumuza, Qarabağa qovuşdurdu. Cənab Prezident Azərbaycanın gücünü dünyaya göstərdi.

### "Həsrətində olduğum Şuşanı qarış-qarış gəzəcəyəm"

*Şuşa şəhər 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi Ayla Qurbanzadə* də öz hisslərini bizimlə bölüşüb: - Şuşalı olsam da, çox təəssüflər olsun ki, mən o dilbər guşəni görməmişəm. Valideynlərim, babam, nənəm Şuşanın gözəlliyindən, əzəmətindən, oradakı xatirələrdən söz açdıqları zaman mən oranı xəyallarımda canlandırmağa çalışmışam. Bu gün xoşbəxtəm ki, həmin gözəllikləri öz gözlərimlə görəcəyəm. Həsrətində olduğum Şuşanı qarış-qarış gəzəcəyəm. O günü səbirsizliklə gözləyirəm. Arzu edərdim ki, Şuşada ali təhsil müəssisələri, universitetlər fəaliyyət göstərsin və mən də həmin universitetlərdə təhsilimi davam etdirim. Arzuladığım sahənin mütəxəssisi kimi yetişərək xalqıma fayda verim.

**Niyazi RƏHİMOV**

# "QARABAĞın məşhur müəllimləri"




## Firidun bəy Köçərli

Əslən şuşalı olan Firidun bəy Köçərli 1885-1890 və 1893-1894-cü illərdə İrəvan gimnaziyasında ana dili, hüsnxətt fənlərini tədris edib. 1895-ci ildə Qori Müəllimlər Seminariyasının tatar şöbəsinin Azərbaycan dili və şəriət müəllimi təyin edilib. 1918-1920-ci illərdə onun təşəbbüsü ilə həmin seminariyanın əsasında açılmış Qazax Müəllimlər Seminariyasının müdiri işləyib.

Firidun bəy müəllimlik peşəsini bütün peşələrdən daha yüksəkdə tuturdu. O, müəllimi gələcəyə işıq salan mayak, nur adlandırırdı. Onun təbirincə desək, "Pis şagird yoxdur, şagirdi düzgün anlamayan müəllim vardır. Müəllimin borcudur ki, hətta ən çətin tərbiyə olunan uşağı belə tərbiyələndirsin". Görkəmli edib hər çıxışında qızların təhsilə cəlb edilməsini ön plana çəkirdi və təhsilli qadının gələcəkdə övladlarını da təhsilli böyüdəcəyini nəzərə çatdırırdı.

## Mehdi Mehdizadə

1903-cü ildə Cəbrayıl rayonunun Daşkəsən kəndində anadan olub. 1926-cı ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirib (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) və bir müddət Qaryagin (Füzuli) şəhərində fizika və riyaziyyat müəllimi kimi pedaqoji fəaliyyətlə məşğul olub.

Mehdi Mehdizadənin təhsilimizin, elmimizin inkişafında mühüm rolu vardır. Akademik Mehdi Mehdizadə təhsil idarəçiliyi sahəsində əsl məktəb yaradıb. Böyük pedaqoqun yaratdığı həmin məktəb bu gün də öz əhəmiyyətini itirməyib.







## Əhməd bəy Ağaoğlu

1869-cu ildə Şuşa şəhərində doğulub. Əhməd bəy 1896-cı ildə Şuşa Realnı məktəbinə fransız dili müəllimi təyin olunub, Şuşada ilk dəfə qiraətxana-kitabxana açıb. Parisdə təhsil görmüş, Avropa mədəniyyətini mənimsəmiş Əhməd bəy Şuşada müəllimlik etdiyi dövrdə uşaqların dünyəvi təhsilə marağını artırmağa çalışıb.1897-ci ildə Əhməd bəyin həyatının Bakı dövrü başlayıb. Hacı Zeynalabdin Tağıyevin dəvəti ilə Bakıya gəlib, məktəblərdən birində fransız dilinin tədrisi ilə məşğul olub. 1925-ci ildə Əhməd bəy qurucusu olduğu Ankara Yüksək Hüquq məktəbində dərs deməyə başlayıb.

Azərbaycanda maarifçiliyin, ədəbiyyatın, dövlətçilik düşüncəsinin formalaşmasında böyük rol oynayan Əhməd bəy jurnalist, pedaqoq, yazıçı və türk dünyasının ictimai-siyasi xadimi kimi tarixə düşüb.

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Naxçıvan Dövlət Universiteti

Aşağıdakı kafedralarda boş olan vəzifələri tutmaq üçün

## ELAN EDİR

**Coğrafiya kafedrası**
*müəllim - 1 yer, dosent - 1 yer (0.5 şt)*

**Azərbaycan tarixi kafedrası**
*müəllim - 1 yer, dosent - 1 yer, professor - 1 yer*

**Ümumi təbabət və kliniki fənlər kafedrası**
*müəllim - 1 yer (0.5 şt),*
*baş müəllim - 1 yer (0.5 şt), baş müəllim - 1 yer*

**Təməl tibb fənləri kafedrası**
*müəllim - 2 yer, dosent - 1 yer (0.5 şt)*

**Nəqliyyat və informasiya texnologiyaları kafedrası**
*baş müəllim - 1 yer (0.5 şt), baş müəllim - 1 yer*

**Ümumi riyaziyyat kafedrası**
*müəllim - 1 yer, baş müəllim - 1 yer*

**İngilis dili və tərcümə kafedrası**
*baş müəllim - 1 yer*

**İngilis dili və metodika kafedrası**
*baş müəllim - 1 yer*

**Biologiya kafedrası**
*müəllim - 1 yer, baş müəllim - 1 yer, dosent - 1 yer*

**Pedaqogika və psixologiya kafedrası**
*müəllim - 1 yer, baş müəllim - 1 yer,*
*dosent - 2 yer (0.5 şt), dosent - 2 yer,*
*professor - 1 yer*

**Bələdiyyə və turizm kafedrası**
*müəllim - 1 yer, baş müəllim - 1 yer (0.5 şt)*

**Fortepiano kafedrası**
*müəllim - 1 yer*

**Təsviri incəsənət kafedrası**
*müəllim - 1 yer (0.5 şt)*

**Kimya kafedrası**
*dosent -1 yer*

**Xalq çalğı alətləri kafedrası**
*baş müəllim - 1 yer*

**Orkestr alətləri və dirijorluq kafedrası**
*baş müəllim - 1 yer*

**Dünya iqtisadiyyatı və menecment kafedrası**
*dosent - 1 yer (0.5 şt)*

**İqtisadiyyat kafedrası**
*professor - 1 yer (0.5 şt)*

**Mühasibat uçotu və maliyyə kafedrası**
*baş müəllim - 1 yer (0.5 şt)*

**Hüquq fənləri kafedrası**
*baş müəllim - 1 yer (0.5 şt)*

**Elektroenergetika mühəndisliyi kafedrası**
*baş müəllim - 2 yer*

**Əczaçılıq və biokimya kafedrası**
*müəllim - 1 yer (0.5 şt)*

**Roman - German dilləri kafedrası**
*müəllim - 1 yer (0.5 şt)*

**Memarlıq kafedrası**
*dosent - 1 yer (0.5 şt)*

**Beynəlxalq münasibətlər kafedrası**
*dosent - 1 yer (0.5 şt)*

**Ümumi və nəzəri fizika kafedrası**
*dosent - 1 yer (0.5 şt)*

**Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası**
*baş müəllim - 1 yer (0.5 şt)*

**Rus və şərq dilləri kafedrası**
*müəllim - 1 yer*

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

**Ünvan:** Naxçıvan şəhəri, Universitet şəhərciyi.

**Telefon:** (036)545-23-66/10-01

**REKTORLUQ**

# Etibarsız sayılır

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2006-cı ildə Səlimov Fariz Ramiz oğluna verilmiş B-076542 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 1994-cü ildə İsayev Cəmil Cəlil oğluna verilmiş AB-I-038829 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** tərəfindən 2003-cü ildə Hacıyev Sultan Ağami oğluna verilmiş AB-I-083747 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1994-cü ildə Hacıyev Sultan Ağami oğluna verilmiş AB-I-026228 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** Əmirvarlı tam orta məktəbini 2014-cü ildə bitirmiş İbrahimova Arzu Mahir qızına verilmiş A-360049 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2018-ci ildə İbrahimova Arzu Mahir qızına verilmiş A-152127 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2013-cü ildə Məhərrəmova Nuriyyə Füzuli qızına verilmiş B-262476 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Qamışlıgöl kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Əliyev Tural Rauf oğluna verilmiş A-325401 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Kürdlər kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş Nəsirova Gülyanaq Ənvər qızına verilmiş A-361166 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2013-cü ildə Quliyev Əbdülməmməd Eldar oğluna verilmiş BB-I-022362 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2000-ci ildə Xudayev Oqtay Heydər oğluna verilmiş AB-I-080650 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Yardımlı şəhər** 2 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Davudlu Davud Seyran oğluna verilmiş B-421625 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Humanitar Kolleci** tərəfindən 2014-cü ildə Əhmədova Aygün Yavər qızına verilmiş AA-042854 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Qoyunbinəsi kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Cəfərova (Əliyeva) Vüsalə Həsən qızına verilmiş 397276 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Qülbəndə kənd ümumi orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Ədilzadə Ömər Nəsimi oğluna verilmiş A-450374 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Qəsli kənd tam orta məktəbi 2017-ci ildə bitirmiş Ədilzadə Ömər Nəsimi oğluna eksternat yolu ilə verilmiş E-062068 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 9 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Əliyev Mərhəmət Vüqar oğluna verilmiş A-683403 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 31 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Məmmədova Səidə Nadir qızına verilmiş A-300724 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 2 nömrəli tam orta məktəbi 1982-ci ildə bitirmiş Kanafiyeva Pəri Sayad qızına verilmiş A-566377 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 175 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Həsənzadə Sənan İlham oğluna verilmiş A-519092 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı “Mətbuat şöbəsi”
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6765, **Sifariş** 2635

**Məsul növbətçi:** O.Mustafayev


# Son 100 ildə tibbin ən böyük nailiyyəti

## Türk həkimlər koronavirus vaksinini tapıblar



**Oruc MUSTAFAYEV**

Dünya mediası iki türk həkimdən danışır. Onların milyonlarla insanın həyatını təhlükəyə atan, minlərlə insanın həyatına son qoyan COVID-19 pandemiyasına qarşı vaksinin hazırlanması üzrə səyləri peyvəndin tezliklə istifadəyə veriləcəyinə dair ümidləri artırıb.

Almaniyanın Maynz şəhərində çalışan türk əsilli həkimlər, professor Uğur Şahin və onun xanımı doktor Özləm Türecinin həmtəsisçiləri olduğu “BioN-Tech” firmasının yeni tip koronavirusa (COVID-19) qarşı hazırladıqları potensial vaksinin virusa qarşı təsirli olduğu açıqlanıb. Şirkətin ortağı olan ABŞ-ın əczaçılıq nəhəngi “Pfizer” bildirib ki, onların hazırladığı peyvənd namizədi könüllülərin yoluxmasının qarşısını almaqda 90% -dən çox effektivdir.

Həkimlər RNT və ya mRNA adlanan texnologiyadan istifadə ediblər. Çərşənbə axşamı jurnalistlərlə telefon danışığı zamanı professor Uğur Şahin xəbərlərin əhəmiyyətini izah edib və dünyaya ümid mesajı göndərib: “Düşünürəm ki, bəşəriyyət üçün yaxşı bir siqnal budur ki, indi biz başa düşürük ki, peyvənd vasitəsilə həqiqətən də COVID-19 infeksiyasının qarşısını almaq olar”.

Bazar ertəsi günü CNN qarşısında çıxış edən “Pfizer”-in baş direktoru Albert Burla türk həkimlərin kəşfini son 100 ildə “tibbin ən böyük nailiyyəti” adlandırıb.

U.Şahin və Ö.Türeci koronavirus vaksinin hazırlanmasında istifadə etdikləri mRNA texnologiyası üzərində 25 ildir ki, çalışdıqlarını deyiblər.”BioN-Tech”-in yeni tip koronavirus vaksini 6 ölkədə 43 500 nəfər üzərində test edilib. Vaksinin test edildiyi ölkələr arasında Türkiyə də var. Vaksin 3 həftə fasilə ilə iki doza halında istifadə ediləcək. “Pfizer” ilin sonuna qədər 50 milyon doza, 2021-ci ilin sonuna qədər isə 1,3 milyard doza vaksini bazara çıxarmağı planlaşdırır.

Qeyd edək ki, U.Sahin və Ö.Türeci öz həyatlarını onkologiya və yoluxucu xəstəliklər sahəsinə həsr ediblər. Onlar xərçəngin müalicəsi üçün immunoterapiyanın fərdi metodlarının hazırlanmasına illərlə vaxt ayırıblar.

# ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Slavyan Universitetinin rektoru Nurlana Əliyeva, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının dosenti

**SEYİDƏLİ HƏSƏN OĞLU MƏMMƏDLİNİN**

vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Slavyan Universitetinin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının müdiri və kafedranın üzvləri kafedranın dosenti

**SEYİDƏLİ HƏSƏN OĞLU MƏMMƏDLİNİN**

vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 267 nömrəli məktəb-liseyin direktoru və pedaqoji kollektivi məktəbin Azərbaycan dili müəllimi Fərəh Səfərovaya anası

**NAİBƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# "Mötəbər idman yarışlarımızın ŞUŞADA, XANKƏNDİDƏ keçirilməsi ən böyük arzumdur"



## *Namiq Abdullayev:*

## "Erməni güləşçilərini həmişə məğlub etmişəm"

**Rəşad ZİYADOV**

"Nəhayət, çoxdan gözlədiyimiz bir vaxt gəlib çatdı. Sentyabrın 27-də qəsbkar düşmənin təxribatlarına cavab olaraq Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müzəffər Ordumuza əks-hücuma keçməklə bağlı əmr verdi. Bir aydan artıqdır ki, torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsində qüdrətli Azərbaycan Ordusu həm maddi-texniki təchizat, həm də döyüş hazırlığı baxımından cəbhədə tam üstünlüyə sahibdir". Bu fikirləri ilə söhbətə başlayan Olimpiya çempionu Namiq Abdullayev Ordumuzun gücündən, uğurlarından və xalqımızın birliyindən danışıb.



"Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordumuzun güclənməsi və möhkəmlənməsi üçün göstərdiyi diqqət və qayğı öz uğurlu nəticələrini bu gün döyüş meydanında verir. Müzəffər Ordumuz əks-hücum əməliyyatı ilə təcavüzkar və işğalçı Ermənistana ciddi zərbələr vurdu, düşmən ordusu həm canlı qüvvə, həm də silah və texnika baxımından xeyli itki verdi. Ordumuzun düşməndən fərqli olaraq yüksək mənəvi-psixoloji hazırlığa malik olması, ən əsası isə Xalq-Ordu-Dövlət birliyi qələbənin əsas rəhninə, etibarlı mənbəyinə çevrildi. Müzəffər Ordumuzun qazandığı qələbələr bizi çox sevindirir və qürurlandırır. Hər bir Azərbaycan vətəndaşı Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında Azərbaycan Ordusuna arxalanır. Güclü Ordumuzun döyüş meydanında üstünlüyü bir daha onu göstərdi ki, bizim vətənpərvər ruhda tərbiyə alan gənclərimiz və Vətənini sevən xalqımız var. Biz azərbaycanlılar həmişə vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmağa məsuliyyətlə yanaşmış, ona həyati əhəmiyyətli məsələ kimi baxmışıq".

Namiq Abdullayev əlavə etdi ki, Vətən bizim varlığımızdır, fəxrimizdir, qürurumuzdur. Vətənimizlə qürur duyduğumuz kimi, həm də onu böyük məhəbbətlə sevirik və onun qarşısında özümüzü borclu sanırıq. Vətən bizi qoruyan anadır. İdmançılarımızın da vətənpərvər olması yarış meydanlarında öz sözünü deyir. Çünki vətənpərvər olmayan idmançı heç bir uğura imza ata bilməz. Biz məşq proseslərində yeniyetmələrimizə "Vətən" və "vətənpərvərlik" kimi müqəddəs anlayışların mənasını aşılayırıq. Onlara Vətəni sevmək, Vətənə bağlılıq, vətənpərvərlik və milli qürur hissinin aşılanmasına səy göstəririk. Siz görürsünüz ki, hər bir idmançı birincilik əldə etdikdən sonra hər birimiz üçün müqəddəs sayılan üçrəngli bayrağımızı dalğalandırdıqda və himnimizi səsləndirdikdə keçirdikləri həmin hissləri sözlə ifadə etməkdə çətinlik çəkir. Ona görə ki, onların xəmirləri vətənpərvər analarımızın laylalarıyla yoğrulub. Mən şadam ki, uşaqlarımız, yeniyetmə və gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alırlar.

- *Namiq müəllim, yarışlarda erməni idmançıları ilə qarşılaşanda, maraqlıdır, hansı hissləri keçirmisiniz?*

- Dünya və Avropa çempionatlarında və beynəlxaq turnirlərdə erməni güləşçiləri ilə çox qarşılaşmışam. Həmişə də bütün idmançılar kimi mən də qələbə qazanmaq haqqında düşünmüşəm və qalib olmuşam. Rəqibin erməni olması idmançıda bir az da məsuliyyət hissini artırır. İdmançılarımız həmişə yarışlarda erməniləri məğlub ediblər.

- *İdman aləminin tanınmış simalarından biri kimi arzunuz nədir?*

- Mötəbər idman yarışlarımızın Şuşada, Xankəndidə keçirilməsi ən böyük arzumdur. Və çoxdandır arzusunda olduğumuz günlərə artıq yaxınlaşmışıq. İnanıram ki, yaxın günlərdə ərazi bütövlüyümüzü tam bərpa edəcəyik və üçrəngli bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarımızda qaldırılacaq, şəhidlərimizin ruhları şad olacaqdır. Azərbaycan xalqı həmrəydir və xalqımızın Prezident İlham Əliyevə, Rəşadətli Azərbaycan Ordusuna olan inamı sonsuzdur. Yaşasın QALİB Azərbaycan Prezidenti və Müzəffər Azərbaycan Ordusu!